www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 may 2017-ci il Cumə axşamı № 105 (6719) Qiyməti 60 qəpik

Xəbər

**Məcburi ərə verilən qız özünü asdı**

yazısı səh.14-də

## Gündəm

**Kreml Bakıdan nə istəyir və ya ÜAK-ın ləğvinin pərdəarxası**



**Tofiq Zülfüqarov:** "Demək lazımdır ki, "ay camaat, Rusiya bizdən bunu istəyir, sizin münasibətiniz necədir?"

yazısı səh.7-də

**Beynəlxalq Bank rəhbəri mediaya danışdı, iqtisadçılar təhlil etdi...**

yazısı səh.4-də

**Rəsul Quliyev qorxunc iddia ilə gündəmə gəldi...**

yazısı səh.12-də

**Ramazan bayramında əfv sərəncamı imzalana bilər**

yazısı səh.6-da

**Ərdoğan-Tramp görüşündən çıxan əsas nəticə**

yazısı səh.5-də

**Vidadi Zeynalovun 4 vəkili yoxa çıxıb**

yazısı səh.6-da

**Agentlərin adlarının açıqlanmasına görə məsuliyyəti kim daşıyır?**

yazısı səh.10-da

**Avropa Şurası Ermənistandan da soyqırım etirafı tələb edəcəkmi...**

yazısı səh.12-də

**ATƏT sədri Cənubi Qafqaz regionuna səfər edəcək**

yazısı səh.2-də

**8 ildir tətbiq edilən kurikulum sistemi təhsilə nə verdi...**

yazısı səh.13-də

**Azərbaycanda torpaqların kütləvi analizinə başlanacaq**

yazısı səh.14-də

**Ölkədə görüntülü və görüntüsüz danışıqları niyə məhdudlaşdırıblar?**

yazısı səh.15-də

### İsrail nəşrindən sensasion iddia - Vaşinqton de-marşa hazırlaşır?

# ABŞ "İSLAM NATO"SU YARADIR - BAKI ÜÇÜN DƏ ÇƏTİN SEÇİM

Prezident Tramp xaricə ilk səfərini ortaq İslam ordusu təşəbbüskarı olan Səudiyyə Ərəbistanına edəcək; Azərbaycan və Türkiyə də sammitə dəvətlidir; ÜAK-ın ləğvindən sonra Bakı üçün unikal fürsət yaranıb - ABŞ-a reverans, yoxsa...




yazısı səh.8-də

## Rusiya Qarabağ cəbhəsində gərginliyi körükləyir - yeni savaş riski

Moskvanın təlimatlandırdığı işğalçı Ermənistan Ağdam cəbhəsində növbəti təxribata əl atdı, cavabını aldı

yazısı səh.11-də



**Şeyx xaricdə təhsil alan ruhanilərlə bağlı məhdudiyyəti asdı**

yazısı səh.3-də



*Sərdar Cəlaloğlu:* **"Ziya Məmmədov ölənə qədər Azərbaycandan xaricə buraxılmayacaq"**

yazısı səh.6-da



**İsmayılı və Məqsəd Nuru niyə güllələyə bilmədim - Rauf Arifoğlu Laçının işğalından yazır**

yazısı səh.9-da

# 18 may 2017

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017



## "Son 4 ayda Azərbaycanın qeyri-neft ixracı 22 faiz artıb" - prezident İlham Əliyev

**"Azərbaycanın ixracat potensialı genişlənir". APA-nın məlumatına görə, bunu Niderland Krallığı Senatının sabiq sədri, Azərbaycanın Niderlandlı Dostları Qrupunun rəhbəri Rene Van der Lindenlə görüşdə Azərbaycan prezidenti İlham Əliyev deyib.**

Dövlət başçısı qeyd edib ki, son 4 ayda ölkəmizin qeyri-neft ixracı 22 faiz artıb.

## İstanbulda əməliyyat: 137 nəfər tutuldu

**İstanbul polisi FETÖ terror təşkilatına qarşı növbəti dəfə əməliyyat keçirib. Lent.az xəbər verir ki, əməliyyat çərçivəsində əvvəllər polis orqanlarında işləmiş 137 nəfər tutulub. Bildirilir ki, əməliyyatlar terrorçu şəbəkənin istifadə etdiyi "Bylock" internet resursunun istifadəçilərinin müəyyənləşdirilməsi ilə bağlı həyata keçirilib.**

Ümumilikdə İstanbulun 16 rayonunda axtarış tədbirləri baş tutub. Eyni vaxtda keçirilən əməliyyatlar zamanı saxlanılan şəxslərin hamısı İstanbul Polis İdarəsinə aparılıb.

## Xərçəng xəstəliyinə faydalı olan daha bir qida

**B 17 vitamini xərçəng diaqnozu qoyulan xəstələr üçün çox faydalıdır, amma bir çox ölkələrdə əczaçılıq şirkətləri bu vitaminlərin satılmaması üçün əlindən gələni edirlər. Bunun səbəbi çox elementardır, əks halda, xərçəng xəstələri tez sağalacaq, əczaçılar isə onlara daha çox gəlir gətirən, davamlı satdıqları, amma xərçəngi sağaltmayan digər dərmanları satıb çoxlu pul qazana bilməyəcəklər.**

Rusiya mətbuatına istinadən xəbər veririk ki, öz xəstələrinin müalicəsində B17 vitaminindən istifadə edən və onları ölümdən xilas edən həkimlər təqib edilir. Bir çox xarici saytlarda yayılan xəbərlərdə qeyd edilir ki, bu mövzunu içtimailləşdirmək qadağandır. Bu ACF-nin, Amerika Onkoloji Cəmiyyəti və Amerika Tibb Assosiasiyası oyununun bir hissəsidir.

B 17 vitamini onkoloji xəstəliklərlə mübarizədə istifadə olunur. İddialara görə, bu vitaminin tətbiqi bədxassəli şişləri tamamilə məhv etməyə qadirdir. Kimyəvi üsulla müalicədən imtina edən bəzi xəstələrin yeganə müalicə vasitəsi də V17 vitamini olub.

Qeyd etmək vacibdir ki, B 17 vitamini ərik çəyirdklərində olur və düzgün istifadə olunması zamanı böyük üstünlükləri təmin edir. Ümumiyyətlə, ərik çəyirdəyi qiymətli maddələrlə zəngindir. Zəngin tərkibi sayəsində ərik çəyirdəyi xalq təbabətində geniş istifadə olunur. Ondan müxtəlif parazitlər, həmçinin bağırsaq qurdları ilə mübarizədə tətbiq olunur. Həmçinin ərik çəyirdəyi göy öskürəyin, bronxitin və nefritin müalicəsi üçün effektiv vasitədir.

Ərik çəyirdəyindən əldə edilən yağ hələ orta əsrlərdə qiymətli məhsul hesab olunurdu. Onun dəyəri qızıla bərabər idi. Bu yağ sağaldıcı, yumşaldıcı, qurdqovucu, həmçinin bədəni gənc saxlayan antioksidant təsirə malikdir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Ermənistan yaşayış məntəqələrimizi atəşə tutduğunu təsdiqlədi

**Ermənistan tərəfi yaşayış məntəqələrimizi və mövqelərimizi atəşə tutmasını əks etdirən video və guya Azərbaycan tərəfinin itkilər verməsi barədə məlumat yayıb.**



Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, düşmən bölmələrinin cəbhənin Ağdam istiqamətində yaşayış məntəqələrimiz və mövqelərimizi müxtəlif çaplı minaatanlardan intensiv atəşə tutması barədə martın 17-də səhər saatlarında rəsmi məlumat verilib: "Videonu yaymaqla Ermənistan təkcə mövqelərimizi deyil, eyni zamanda yaşayış məntəqələrimizi də müntəzəm olaraq atəşə tutmasını nümayiş etdirərək dinc azərbaycanlı əhaliyə qarşı öz çirkin əməllərini davam etdirdiyini bir daha təsdiq etdi.

Müdafiə Nazirliyi bildirir ki, düşmən tərəfindən atəş nəticəsində dinc əhali, Silahlı Qüvvələrimizin şəxsi heyəti arasında itki yoxdur və döyüş texnikasına ziyan dəyməyib.



Əziz Kərimzadə

## Tanınmış yazıçının oğluna hökm oxundu- 9 il

**Tanınmış yazıçı Fərman Kərimzadənin oğlu Əziz Kərimzadənin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmədə ilk olaraq Əziz Kərimzadə son sözlə çıxış edib. O, çıxışında barəsində bəraət hökmünün çıxarılmasını xahiş edib.

"Zərərçəkən İlahə mənə şər-böhtan atır. Digərlərin isə şikayəti yoxdur. Onlardan da borc almışam, sonra da aparıb qaytarmışam. Ona görə barəmdə bəraət hökmü çıxarılmalıdır"- deyə Ə.Kərimzadə çıxışında deyib.

Məhkəmə müşavirəyə yollanıb. Məhkəmənin hökmünə əsasən Əziz Kərimzadə 9 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Ə.Kərimzadə barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. Ə.Kərimzadə Bakı şəhəri 3 saylı Hüquq Məsləhətxanasının vəkili olub.

❑ **İ.MURADOV**




## 10 təhsil müəssisəsinə müəllimlər müsabiqədənkənar işə qəbul olunacaq

**"Ötən il Azərbaycanda rekord sayda - 27 min müəllim işə qəbul üzrə imtahanlarda iştirak edib. Keçid balı - 36 baldan çox toplayanların nəticəsi bir il qüvvədə saxlanılır və onlar bu il imtahan vermədən vakant seçimdə birbaşa iştirak edə biləcəklər. Ötən il 48 baldan yuxarı nəticə göstərənlərin sayı 5 mindən yuxarıdır. Keçid balını toplayanların sayı ilə bağlı isə dəqiq məlumat yoxdur".**

APA-nın xəbərinə görə, bunu **Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırov** deyib.

E. Bağırov qeyd edib ki, bu il bəzi təhsil müəssisələrinə müəllimləri müsabiqədənkənar işə qəbul etmək hüququ verilib, bu müəssisələrin siyahısı artıq təsdiqlənib: "10 belə müəssisə müəyyənləşib. Onların hamısı Təhsil Nazirliyinin tabeliyindədir. Müəllimin, namizədin təyinatı Təhsil Nazirliyi ilə razılaşdırılmalıdır".

**Onun sözlərinə görə, seçilmiş müəssisələr respublikada ən yüksək akademik göstəricilərə malikdir:** "Bu müəssisələrə işə qəbul olmaq istəyən müəllimlər üçün mərkəzləşdirilmiş imtahanda iştirak etməyə ehtiyac yoxdur. Sadəcə olaraq, namizədlərin siyahısı nazirliyə təqdim olunacaq və siyahı müvafiq komissiya tərəfindən araşdırılacaq. Gələcəkdə Təhsil Nazirliyinin tabeliyində olmayan, yüksək akademik göstəricilərə malik olan digər müəssisələrə də belə bir səlahiyyətin verilməsinə baxıla bilər. Bu məktəblərin akademik göstəricilərinə müxtəlif olimpiadalarda, yarışlarda yüksək nəticə əldə etmə və s. aiddir. Həmin müəssisələrə işə qəbul olmaq istəyən müəllimlər üçün işə qəbul üzrə qoyulan tələblər digər məktəblərdən daha yüksək olacaq. Həmin namizədlər sözsüz ki, ən yüksək bal toplayanlar olmalıdır. Bununla belə, namizədin yalnız müsabiqədə yüksək bal toplaması tələb olunmur".

**Nazirlik rəsmisi əlavə edib ki, əvvəlki illərdə peşə təhsili müəssisələrində ümumtəhsil fənlərini tədris edən müəllimlərin də işə qəbulu birbaşa müsabiqə yolu ilə həyata keçirilib, müsabiqədə iştirak edərək müvafiq balı toplayanların təyinatı Təhsil Nazirliyi tərəfindən verilib:** "Bu il isə bir qədər fərqli olacaq və peşə təhsili müəssisələrinə işə qəbul 2016-cı ildə yaradılan Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən aparılacaq. Həmin müəllimlər isə test imtahanında müvafiq balı toplayan namizədlər arasından seçiləcək".

## Azərbaycan maşın bazarında qiymətlər artıb

**Azərbaycanda cari ilin aprel ayında minik avtomobilləri 1,6% bahalaşıb. Velosipedlərin qiymətində isə 1,2% artım qeydə alınıb. "Report" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbərə verir.**

Minik avtomobilləri yanvarda 0,8%, fevralda 0,6% bahalaşıb, mart ayında isə sabit qalıb. Velosipedlərin qiymətində isə yanvarda 1,2%, fevralda 1,4%, martda 1,2% artım müşahidə olunub. Rəsmi statistikaya əsasən, apreldə 1 minik avtomobili üçün orta qiymət 31 893,65 manat, velosiped üçün isə 161,15 manat təşkil edib.

## ATƏT sədri Cənubi Qafqaz regionuna səfər edəcək

**ATƏT-in fəaliyyətdə olan sədri, Avstriyanın xarici işlər naziri Sebastian Kurzun Cənubi Qafqaz regionuna səfəri bu il ərzində baş tutacaq.**

Bu barədə APA-ya Avstriya səfirliyinin mətbuat ofisindən məlumat verilib.

Bildirilir ki, səfərin dəqiq tarixi hələlik müəyyənləşməyib.

Qeyd edək ki, ATƏT-ə sədrlik edən ölkələr ənənəvi olaraq hər il Dağlıq Qarabağ münaqişəsinin tərəfləri olan Azərbaycan və Ermənistana səfər edirlər. 2016-cı ildə ATƏT-ə sədrlik edən Almaniya xarici işlər naziri Frank Volter Ştaynmayer iyunun 30-da, 2015-ci ildə sədrlik edən Serbiyanın xarici işlər naziri İvitsa Daçiç isə iyunun 1-də Azərbaycana səfər edib.

## Bakıda özünü binadan ataraq intihar etmiş qadının əri saxlanıldı

**Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu mayın 15-də Bakıda baş vermiş intihar hadisəsi ilə bağlı birgə məlumat yayıb.**

APA-nın məlumatına görə, məlumatda bildirilir ki, mayın 15-də 1986-cı il təvəllüdlü Şərifova Susana Şakir qızının Nəsimi rayonunda yaşadığı mənzilin eyvanından özünü ataraq öldürməsi barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğunun və polis idarəsinin əməkdaşları tərəfindən məhkəmə tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

İstintaqla Baxşiyev Əbülfəs Yusuf oğlunun 2009-cu ildən etibarən rəsmi nikahları qeydə alınmasa da, faktiki ər-arvad kimi birlikdə yaşadığı və maddi cəhətdən asılı olmuş S. Şərifovanı dəfələrlə döyüb işgəncə verməsində, habelə amansız rəftar etməklə və ləyaqətini mütəmadi olaraq alçaltmaqla onu özünü öldürmə həddinə çatdırmasında əsaslı şübhəler olduğundan Ə. Baxşiyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Ə. Baxşiyevə Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan olunmaqla, barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

**Kütləvi informasiya vasitələrinin (KİV) əməkdaşlarına yeni binada mənzillərin verilməsinin qaydaları və şərtləri açıqlanıb. Şərtlərə görə, ən azı 3 il fasiləsiz fəaliyyət göstərən KİV-in (televiziya və radio yayımçıları, qəzet, jurnal, informasiya agentliyi, internet portalı və sayt) komissiya tərəfindən müəyyənləşdirilmiş şərtə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən əməkdaşlarının namizədliyini vermək hüquq var.**

# "Evlə bağlı müəyyən olunmuş şərtlər tam şəkildə tətbiq olunacaq"

## Komissiya üzvü jurnalistlərə mənzillərin verilməsi şərtlərində bəzi nüanslara aydınlıq gətirdi; **Aydın Quliyev:** "Burada hər hansı sürüşkənlik yoxdur"

Televiziya və radio yayımçıları 10, gündəlik qəzet və informasiya agentlikləri 6, həftəlik qəzetlər, jurnallar, xəbər portalları və saytları 3 namizəd irəli sürə bilər. Namizədliyi verilən KİV əməkdaşı həmin redaksiyada ən azı fasiləsiz 3 il, KİV-də isə ən azı fasiləsiz 10 il fəaliyyət göstərməlidir.

Qeyd edək ki, jurnalistlərə yeni binada mənzil verilməsi üçün qayda və şərtləri müəyyənləşdirmək üçün komissiya yaradılıb. Vüqar Səfərlinin sədrlik etdiyi komissiyaya KİVDF-dən Vüqar Səfərli, Müşfiq Ələsgərli, Samir Mustafayev, MTRŞ-dən Nuşirəvan Məhərrəmli, Nemət Cavadov, Aygün Mehdiyeva, Mətbuat Şurasından Əflatun Amaşov, Vüqar Rəhimzadə, Aydın Quliyev daxil edilib.

Artıq bir neçə gündür ki, bu şərtlər mətbuatda və sosial mediada müzakirə olunur. Mətbuat sahəsində çalışan və stajı 10 ilə çatmayan jurnalistlərin mənzil probleminin həlli ilə bağlı vəziyyət media sektorunda ən çox verilən suallardan biridir. Görəsən, şərtlərdə müəyyən elastiklik varmı, məsələn, 9 illik stajı olanlara bu haqq tanına bilərmi? Bundan başqa, uzun illər mətbuatda çalışan texniki işçilərin də jurnalistlər üçün tikilən binadan mənzil almaq hüququ varmı? Mətbuat orqanları tərəfindən irəli sürülən namizədlərdən neçə nəfəri mənzillə təmin oluna bilər?

**Bu suallara cavab tapmaq üçün komissiyanın üzvü, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevlə əlaqə saxladıq. O bildirdi ki, komissiya tərəfindən müəyyən olunmuş şərtlər tam şəkildə tətbiq olunacaq. Yəni KİV sahəsində 10 il davamlı olaraq çalışmayan və işlədiyi mətbuat orqanında 3 ildən az işləyən jurnalistlərin müraciətləri qəbul olunmayacaq:** "Bu qaydalar dəyişməzdir. Orada 10 il staj qoyulubsa, deməli, 10 il olmalıdır. Burada hər hansı sürüşkənlik yoxdur. Şərtlər birmənalı şəkildə yazıldığı kimidir. O şərtləri komissiya bir dəfə müəyyənləşdirib və sona qədər də birmənalı şəkildə qüvvədə qalmalıdır".


Aydın Quliyev

**Mətbuat orqanlarında 10 ildən artıq işləyən texniki işçilərə də jurnalistlər üçün tikilən mənzillərdən verilməsinə gəlincə, Aydın Quliyev bu məsələnin hazırda müzakirə olunduğunu dedi:** "Onu komissiyanın sədri Vüqar Səfərli də jurnalistlərlə söhbətində dilə gətirdi. O dedi ki, bu məsələ ilə bağlı müzakirə aparılacaq. Hələ ki bununla bağlı bir qərar yoxdur".

Suallardan biri də odur ki, mətbuat orqanlarının müvafiq olaraq irəli sürdüyü 10, 6 və 3 nəfər namizəddən neçə nəfəri mənzillə təmin olunacaq? 10 nəfərin hər birinə mənzil verilməsi mümkündürmü?

**Aydın Quliyev bildirdi ki, şərtlərə görə televiziya və radio yayımçıları 10, gündəlik qəzetlər 6, digər jurnal və qəzetlər, eləcə də saytlar 3 nəfərin namizədliyini irəli sürə bilərlər:** "Ancaq mütləq deyil ki, gündəlik qəzetlər 6 nəfərin namizədliyini irəli sürsünlər. Çünki həmin qəzetlərdə bu kriteriyalara cavab verən 6 namizəd olmaya bilər, 4 nəfər ola bilər. O zaman 4 nəfərin namizədliyini verə bilərlər. Həmin şəxslərdən kimlərin ev alacağı Prezident Administrasiyasındakı müvafiq müzakirələrdən sonra bəlli olacaq. Bu, komissiyanın işi deyil. Verilən limit daxilində bir qəzetin əməkdaşlarından istənilən sayda mənzillə təmin olunması mümkündür".

**Müzakirə olunan məqamlardan biri də evsiz olan gənc jurnalistlərin mənzillə təmin olunması məsələsidir. Bu kateqoriyaya daxil olan media nümayəndələrinin 10 illik stajı olmadığından həmin imkanlardan kənarda qalırlar.**

**Bu məsələyə toxunan Aydın Quliyev bildirdi ki, bu gün şərtlər belədir ki, 10 il stajın olması mütləqdir:** "Mən başa düşürəm ki, gənc jurnalistlər də mənzil sahibi olmaq istəyirlər. Lakin onlar ümidlərini itirməyib bu sahədə stajlarını artırmaqda davam etsinlər".

❑ **Nərgiz LİFTİYEVA**

# Şeyx din sahəsində böyük bir məhdudiyyəti aşdı

## Xaricdə təhsil almış şəxslərin məscidlərə təyinat almasının qarşısını açan dəyişiklik QMİ-nin və rəsmi ruhaniliyin mövqelərini möhkəmləndirməyə hesablanıb

**Mayın 15-də Milli Məclis "Dini etiqad azadlığı haqqında" Qanuna təklif olunan dəyişiklikləri qəbul edib. Qəbul olunmuş layihəyə əsasən, Qafqaz Müsəlmanları İdarəsi xaricdə dini təhsil almış Azərbaycan vətəndaşlarını müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla, İslam dininə aid ayin və mərasimlər aparmasına icazə verə bilər.**

Bununla da dəyişiklik QMİ-yə din xadimi təyinatı ilə bağlı yeni səlahiyyət verir. Qanuna edilən dəyişiklikdə göstərilir ki, dini mərkəz tərəfindən dəvət edilmiş din xadimləri istisna olmaqla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin dini təbliğat aparmasının qadağan edilməsi nəzərdə tutulub. Bununla indiyə qədər olan tam qadağa məhdudiyyəti yumşaldılır.

Bundan başqa, vətəndaşların təhsil almaq üçün xarici ölkələrin dini tədris müəssisələrinə göndərilməsi, dini tədris müəssisələri tələbələrinin və müəllimlərinin, habelə din xadimlərinin və mütəxəssislərinin mübadiləsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla dini mərkəz tərəfindən həyata keçirilməsi də layihədə əks olunub.

Bu, daha əvvəlki qaydaların nisbətən dəyişdirilməsidir. Məsələ ondadır ki, 2015-ci ilin 4 dekabrında Milli Məclisin "Dini etiqad azadlığı haqqında" Qanuna edilən dəyişikliyə əsasən xarici ölkələrdə dini təhsil almış şəxslərin Azərbaycan ərazisində ibadət və dini ayinləri yerinə yetirməsi qadağan edilirdi. Əslində bu qadağaya qədər də xaricdə təhsil alanlara müəyyən məhdudiyyət olsa da, qanunun sərtləşdirilməsindən sonra xaricdə təhsil alanlar sıxışdırıldı. Son olaraq Hacı Sərdar Hacıhəsənli Masallı rayonunda cümə namazı qıldırdığı üçün həbs olunub və barəsində cinayət işi açılıb.

Ancaq indi görünən odur ki, hökumət bu sahədə müəyyən bir yumşalma və başqa adla bir sistemləşmə yaratmağa çalışır. Çünki təcrübə göstərdi ki, xaricdə dini təhsili,


Allahşükür Paşazadə

ümumiyyətlə, təhsili qadağan etmək mümkün deyil. Digər tərəfdən, Azərbaycanda təhsilin digər sahələri kimi dini təhsil sahəsində də ciddi problemlər var. Üstəlik, bu sahədə uzun illər rəsmi məhdudiyyət olduğu üçün Azərbaycanda dini təhsil müəssisələri digər müsəlman ölkələrindən çox geri qalır. Bu səbəbdən də yerli kadrlar ilahiyyatçı tələbatını ödəyə bilmir. Bir neçə ay əvvəl QMİ bəyan etdi ki, ölkədə mövcud olan 2100-dən artıq məscidin yalnız 600-də axund və imam təyinatı olub. Bu da ilk növbədə kadr çatışmazlığı ilə əlaqədardır.

Müstəqillikdən sonra Azərbaycana İran, Türkiyə, körfəz ölkələrindən çoxlu sayda din təbliğatçıları gəlib. Onların bir çoxu təmsil etdikləri ölkələrin tikdirdikləri məscidlərdə dini təbliğat həyata keçiriblər. Ancaq 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yarandıqdan sonra hökumət həm ölkə daxilindəki xarici dini mədrəsələri bağladı, həm də əcnəbi din təbliğatçılarının məscidlərdə fəaliyyətini yasaqladı.

Son illərdə isə ümumiyyətlə, xaricdə dini təhsil alan azərbaycanlılara qarşı bir sıra məhdudiyyətlər, nəhayət, qanunla xaricdə təhsil alanların dini ibadət həyata keçirmələri yasaqlandı. Ancaq gedişat da göstərdi ki, bu yanaşma kökündən yanlışdır. Xaricdə dini təhsil bütövlükdə qadağan edilə bilməz. Sadəcə, Azərbaycan qanunvericiləri və müvafiq dövlət qurumları problemin müvafiq həll yolunu tapmaq əvəzinə birdəfəlik qadağa qoymaqla bu sahədə əlavə problem yaratdı. Sayları yüzlərlə olan xaricdə dini təhsil almış ilahiyyatçıları şübhə altına almaq, onları dini fəaliyyətlərdən kənarda qoymaq bu şəxslərin təhsil və iş hüququnu məhdudlaşdırmaqla yanaşı, ölkədə savadlı din təbliğatına zərbə vuraraq dini təhsilin gizli, evlərdə aparılmasına, gizli dini fəaliyyətlərə rəvac verdi.

Yalnız indi son aylarda müvafiq qurumlar savadlı din xadimlərinə ehtiyac olduğunu etiraf etməyə başladılar. Bir neçə ay əvvəl Azərbaycanda 7 yeni dini mədrəsənin yaradılması haqqında qərarın verilməsi, ardınca isə xaricdə dini təhsil alanların dini ibadət yerinə yetirməsinə qoyulan məhdudiyyətin aradan (qismən) qaldırılması bu istiqamətdə proqressiv addım sayıla bilər.

Bizə çatan məlumata görə, son qanunvericilik dəyişikliyinin müəllifi QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadə olub. Dövlət qarşısında məsələ qaldıran Şeyx savadlı, yüksək təhsilli ruhanilərin dini fəaliyyətə cəlb olunmasına nail olub. Qanuna edilən yeni dəyişikliyə əsasən, xaricdə təhsil almış şəxs QMİ və DQİDK tərəfindən müvafiq razılıq verildikdən sonra ruhani vəzifəsinə təyinat alacaq. Bu isə o deməkdir ki, adıçəkilən qurumlarla yanaşı, müvafiq orqanlar zəmanət verdikdən sonra xaricdə təhsil alanların dini vəzifəyə təyinatı həyata keçiriləcək.

Məlum olduğu kimi, Azərbaycanda məscidlər tikili olaraq bələdiyyə və ya tarixi-memarlıq abidəsi kimi Mədəniyyət və Turizm Nazirliyinin balansında olur. Eyni zamanda məscidlərdə dini icmalar yaradılır və bu icmalar DQİDK tərəfindən dövlət qeydiyyatına alınır, onların fəaliyyətinə Dövlət Komitəsi nəzarət edir. Məscidlərə imam və axund təyinatı isə QMİ-nin səlahiyyətindədir. Bu mənada istənilən halda məscid imamı və ya axund QMİ tərəfindən təyin olunsa da, onun təyinatına digər əlaqədar dövlət qurumları zəmanət verməlidir.

Qanuna edilən dəyişiklik QMİ-nin yeni, savadlı kadrları işə cəlb etmək, idarənin dini sahədə nüfuzunu yüksəltmək, onun fəaliyyətini daha da səmərəliləşdirmək, leqal dini fəaliyyətlərin qeyri-leqal fəaliyyətlər qarşısında daha davamlı olmasını təmin etmək baxımından düzgün qərar hesab oluna bilər. Çünki QMİ-nin kadr sarıdan zəifliyi onu müstəqil, xaricdə oxumuş ilahiyyatçılar qarşısında həmişə zəif göstərib. Bunu idarənin nəzarətində olan məscidlərlə müstəqil ruhanilərin namaz qıldığı, xütbə oxuduğu məscidlərdəki kütləvilik arasında fərqdə də görmək olar. Bu mənada yeni dəyişiklik həm də cəmiyyətdə QMİ-nin mövqelərinin, dini camiədə nüfuzunun artmasına səbəb ola bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

Hər səhər "İçərişəhər" metro stansiyası ətrafında orta məktəblərə maşınla uşaq aparan valideynlərlə polislər arasında narazılıq yaşanır. Vaxt qısıt, park problem, məktəb yolun kənarında, yaxınlıqdakı avtodayanacağa gedib-gəlmək zaman alır, sıxlıq yaranır. Polislər valideynlərə "yol kənarında saxlamayın" deyirlər, valideynlər "harda saxlayaq" soruşur və bu proses aylardı davam edib, qarşılıqlı gərginlik yaradır. Bu problem necəsə həllini tapmalıdı. Polislə vətəndaş üz-üzə qalmalı deyil.

**Aysel Əlizadə**

# Polisin qollarında...



Hörmətli DYP-çilər !

Onsuz da yorğunuq, qayğımız çoxdu.

Bir də siz üstümüzə gəlməyin. Yersiz saxlamayın, səhər işə getdiyimiz vaxt başımızın üstünü kəsdirib o basabasda, tıxacda vaxtımızı almayın, boş hesablar sormayın, ehtiyac olmadığı halda cərimə yazmayın. Xəbərdarlıqla ötüşdürün.

Siz axı bizim yol köməkçimizsiz. Yolumuzu açansız. Boş yerə üzməyin bizi.

Onu deyim ki, son aylar yol polisimiz xeyli işgüzar, peşəkar və peşəsinə layiq ədəbli duruş alıb. Yağışda-qarda, tıxacları açan, erkəndən iş başına keçib maşınların hərəkətini asanlaşdıran yol polislərinə içimdə həmişə təşəkkür hissi olur. Polis də bizlərdən biridi. Yad məmləkətdən, başqa planetdən gəlməyib görəv üçün.

Ancaq birinin bircə haqsız davranışı bütün bu əziyyəti gözdən salmağa yetir. Nəzakətli, özünə, peşəsinə hörmət edən, sürücü ilə davranışını bilən polislər də görürük, nə yazıq, bəzən əksi ilə də rastlaşırıq.

İstəyirəm uşaqlarımız dövlətin üzü sayılan bu şərəfli peşə sahiblərini sevsinlər, onlara güvənsinlər.

***

Bir şəkil çıxdı qarşıma.

Uşağın oturduğu yelləncəyin kəndirləri polisin əzələli qol-




larından asılıb. Dövlət babanı bundan aydın ifadə etmək olmazdı - çox duyğulandım. Cənubi Koreyada reklam lövhəsidi. Yalnız sivil ölkədə polisin - dövlətin görəvi bu cür güclü təsvir edilə bilər.

Yeri gəlmişkən, 2015-ci ilin bu günlərində Binəqədi rayonunda yanan binadan həyatını riskə atıb bir körpəni xilas edən polis oldu. Ciddi nümunə idi. Qürurlandıq. Polis təkcə mühafizəçi deyil, bəzən həm də xilaskardı.

***

Polis dostlar, sizin qoruduğunuz, keşiyini çəkdiyiniz bu ölkə burda böyüyən uşaqların sığınacağı, rahatlıq ocağı olmalı. Sizə dağa söykəndiyimiz kimi söykənmək istəyirik. Ləyaqətinizi öz ləyaqətimiz kimi sevmək istəyirik.

Sizi ədalət saymaq və bu ədalətə sizin simanızda sayğı duymaq istəyirik. Hətta sizdən qorxumuz ədalətdən qorxumuz olmalı.

***

Dostumun balaca qızı polis olmaq arzusundadı. Bu arzunu eşidəndə sevindim. Görünür, kimsə, hansısa polis əmi ona öz peşəsini duruşu, davranışı ilə sevdirib.

Uşaqların dəhşətli müşahidəsi var. Diqqətli olun. Onlar sizi hamıdan çox "görürlər". Onlar hamını hamıdan çox izləyirlər.

Nə edirsiz, edin, bu ölkənin gələcəyinə, sabahkı cəmiyyətinə - müəllimi, ustası, mühəndisi, hüquqçusu, yazıçısı, sürücüsü və başqasına dövləti sevdirin.

Sizdən çox şey asılıdı.

Hər şey ötüb keçir - keçəcək, doğrular yerini alır-alacaq.

Siz ən ağır dönəmdən belə ləyaqətlə çıxarın bu dövləti.

Polis əmilər, biz sizə güvənmək istəyirik.

# Beynəlxalq Bank rəhbəri mediaya danışdı, iqtisadçılar təhlil etdi...

## Natiq Cəfərli: "Artıq Beynəlxalq Bankın zəiflədiyi inkar olunmur"

**"Bankın xarici öhdəliklərinin restrukturizasiya edilməsi qərarı yaranmış fəsadın aradan qaldırılmasına, Azərbaycan Beynəlxalq Bankının kapital mövqeyinin gücləmnəsinə hesablanmış bir qərardır". Bu fikirləri ABB-nin İdarə Heyətinin sədri Xalid Əhədov "APA-Economics"-ə müsahibəsində səsləndirib.**

Xalid Əhədov həmçinin qeyd edib ki, xarici öhdəliklərin restrukturizasiya prosesinin Azərbaycan Beynəlxalq Bankının müştərilərinə, hüquqi və fiziki şəxslərin bankdakı vəsaitlərinə, onların bankla əlaqədar istənilən fəaliyyətinə hər hansı şəkildə təsiri yoxdur: "Çünki xarici öhdəliklərin restrukturizasiyası prosesi onları əhatə etmir. Hətta deyərdim ki, bu, müştərilərimizin faydasına olan bir qərardır. Çünki bank xarici öhdəliklərdən azad olaraq daha bu öhdəliklərə xidmət etmir, bu öhdəlikləri dövlət ödəyir, bank isə güclənməyə, inkişafa, digər strateji məqsədlərinə fokuslanır. Nəticədə müştərilərimizin bankı daha sağlam və güclü maliyyə institutuna çevrilir".

Beynəlxalq Bankın beynəlxalq reytinqinin aşağı düşməsinə toxunan bank rəhbəri bu qurumun sağlamlaşdırılmasından sonra reytinqlərin qalxacağına da inamını ifadə edib.

**Nyu-York Məhkəməsinə müraciət olunmasını da təsdiqləyən X.Əhədov bu yolla xaricdəki aktivlərini qorumağa çalışdıqlarını açıqladı:** "ABB xarici öhdəliklərinin restruturizasiyası prosesinin ABŞ-da tanınması və bu səbəbdən kreditorlar tərəfindən ABŞ məhkəmələri vasitəsilə onun aktivlərinə qarşı iddia qaldırılmasının qarşısının alınması məqsədilə Nyu-York Məhkəməsinə müraciət etdi və bu müraciətimiz məhkəmə tərəfindən təmin olundu. Bu da bütün dünyada restrukturizasiya proqramının ayrılmaz hissəsidir".

**Xalid Əhədovun müsahibəsində yer alan nüansları dəyərləndirən iqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında ilk növbədə bank rəhbərinin media qarşısına çıxmasını müsbət qiymətləndirdi:** "Müsahibənin məğzi ondan ibarətdir ki, media vasitəsilə müəyyən məsələlərə aydınlıq gətirilməyə çalışıldı. Burada sanki vətəndaşlar sakitləşdirmək üçün bir işarə var idi. Əslində bu diskussiyalar olmalı idi. İnsanlarla normal dialoq qurulmalı idi, baş verən proseslərlə bağlı onlara izahat verilməli idi. Gecikmiş də olsa internet mediada gedən bu müsahibə bəzi məqamlara aydınlıq gətirildi. Artıq Beynəlxalq Bankın son illərdə daha çox zəiflədiyi inkar olunmur. Daxili resurslar hesabına 10 milyard manata yaxın vəsaitin başqa təşkilata ötürüləcəyi və hətta bunun da bankın sağlamlaşması üçün yetərli olmadığı ortaya çıxdı. Beynəlxalq öhdəliklərlə bağlı da açıqlama oldu ki, MDB məkanında olan öhdəliklərlə bağlı problem yoxdur. Onlar dövlət zəmanəti ilə həll ediləcək".



**Ekspert bildirdi ki, Nyu-York Məhkəməsinə müraciətin səbəbi də onun daha öncə səsləndirdiyi gümanlarla üst-üstə düşdü:** "Bu müraciətin çox pislə pis arasındakı bir seçimdən doğduğu üzə çıxdı. Ən pisi o ola bilərdi ki, Beynəlxalq Bank may ayından etibarən xarici öhdəliklərini yerinə yetirə bilməsəydi, beynəlxalq məhkəmələrdə ABB-yə qarşı iddialar qaldırıla bilərdi və bankın xaricdə yerləşdiyi aktivlərə həbs qoyula bilərdi, kreditorlar tərəfindən geri tələb oluna bilərdi. Bunu önləmək üçün Mərkəzi Bank çox pis ssenaridən pis ssenariyə keçdi. Nyu-York Məhkəməsinin qərarından sonra Beynəlxalq Bankın xarici borcları ilə bağlı iddialar qaldırılmayacaq. Həmçinin danışıqlar dövrü başlayacaq. Çox güman ki, mart ayının 23-də Londonda ilk görüş baş tutacaq. Bu, kreditorlarla bank rəhbərliyinin ilk görüşü olacaq, burada maliyyə naziri də iştirak edəcək. Bu görüşdə borcların ödənilmə qrafiki təsdiqlənəcək və xarici kreditorlara güvən mesajları veriləcək. Bütün bu borcları dövlətin öz üzərinə götürdüyü bəyan ediləcək. Məni narahat edən əsas məsələ isə odur ki, Beynəlxalq Bank dövlət büdcəsinə bu qədər ziyan vurmasına baxmayaraq, dövlətə arxayın olduğunu, bu sağlamlaşdırmanın bir illik dövlət büdcəsinə başa gəldiyini deməkdən çəkinmir, bank rəhbəri bu dəstəyin davam edəcəyini söyləyir".

**Natiq Cəfərlinin sözlərinə görə, bank rəhbəri həmçinin özəlləşdirmə ilə bağlı da çox pozitiv fikirlər səsləndirib, lakin bunun iqtisadi əsası yoxdur: "Burada da problemlər var.** Dövlət bankın öhdəliklərini öz üzərinə götürsə də, özəlləşdirməyə açılan bankların əsas göstəricilərindən biri beynəlxalq reytinqlər olur. Bu gün beynəlxalq reytinq agentliklərinin verdiyi qiymətə görə, Beynəlxalq Bankın reytinqi ən aşağı səviyyədədir. Rusiyada buna "zibil reytinqi" deyirlər.

Bu reytinqin düzəlməsinə isə illər lazım olacaq. Bu baxımdan, hər hansı xarici investorun Beynəlxalq Bankla maraqlanması mümkün görünmür. Buna baxmayaraq, Xalid Əhədov çox optimist danışırdı. Lakin bu optimist yanaşmanın əsası yoxdur".

**İqtisadçı müsahibədə bankın müflis olmasına gətirib çıxaran səbəblərin açıqlanmamasından narahatlığını ifadə etdi:** "Məni narahat edən əsas məqam isə odur ki, bank rəhbəri müsahibəsində bankın keçmişdə idarə olunması ilə bağlı yol verilən səhvlərdən danışmadı. Bankın hansı səhvlərə görə bu vəziyyətə düşməsi ilə bağlı ciddi heç nə demədi. Hazırda hər kəs bu səhvlərin doğurduğu nəticə ilə mübarizə aparır. Ancaq səbəblər ciddi araşdırılmır. Yaxşı olardı ki, bank rəhbəri özünün daxili auditi hesabına keçmişdə baş verən səhvləri araşdırsın, sonradan gələcəkdə bu cür nəticələrlə yenidən qarşılaşmasın. Bu mənada müsahibədə Beynəlxalq Bankın bugünkü vəziyyətinin səbəbləri haqqında normal bir izah yoxdur".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017



# Ərdoğan-Tramp görüşündən çıxan əsas nəticə - iki rəy

## Dünyanın gündəmini tutan hadisə Bakının da diqqətində olub

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla ABŞ prezidenti Donald Trampın Ağ Evdə görüşü dünyanın diqqət mərkəzində oldu. Trampın Ərdoğanı kifayət qədər isti qarşılaması, iki prezidentin hansı məsələləri müzakirə etdiyi, görüşün nəticələri isə müzakirə mövzusu olaraq qalır. Məlumatlara görə, əsasən İŞİD-lə mübarizə, "FETÖ" lideri Fətullah Gülənin təhvil verilməsi, Suriya məsələlərinin müzakirə olunduğu görüş uzun sürməyib.**

22 dəqiqədən sonra jurnalistlər önünə çıxan liderlər danışıqlar barədə öz fikirlərini söyləyiblər. Ərdoğan öz çıxışında ABŞ-la Türkiyənin bir çox beynəlxalq qurumda müttəfiq olduğunu xatırladıb və indiki zamanda bu müttəfiqliyə daha ciddi ehtiyacların olduğunu etiraf edib. O, ABŞ-dan gözləntilərini də gizlətməyib. Altını xüsusilə cızdığı gözləntiləri isə əsasən bunlar olub: PKK-PYD, İŞİD və sair terror təşkilatlarına qarşı birgə mübarizə, kürd separatçılarının silahlandırılmaması, ABŞ-a sığınan Fətullah Gülənin təhvil verilməsi, iqtisadi əməkdaşlıq perspektivləri. Tramp isə Türkiyənin İŞİD və PKK-ya qarşı mübarizəsini dəstəklədiklərini bildirərək, digər məsələlər barədə heç bir fikir söyləməyib, iki ölkə arasındakı müttəfiqlik perspektivlərinin çərçivəsini ortaya qoyub. ABŞ prezidenti Ərdoğanın ziyarətindən məmnun olduğunu vurğulayıb, Türkiyə ilə ABŞ-ın müttəfiq olduğunu da deyib.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, Trampın Ərdoğanla Ağ Evdəki görüşünü tarixi görüş adlandırmamaq üçün bir neçə səbəb var:** "Birincisi, liderlərin təkbətək görüşü cəmi 22 dəqiqə çəkdi. 22 dəqiqədə hansı vacib mövzunu geniş müzakirə etmək olardı? Doğrudur, daha sonra heyətlərarası görüş oldu və həmin görüş təxminən 2 saat çəkdi, ancaq həmin görüşdən də ciddi nəticələr çıxdığını düşünmürəm. Müxtəlif mövzular ətrafında qısa fikir mübadiləsi aparılıb, detalların müzakirəsi müşavirələrə tapşırılıb. "Şeytan" isə məhz detallarda gizlənib. İkincisi, Ankara Vaşinqtonun Suriyadakı silahlı kürdlərə ağır silah verməsini istəmir. Tramp isə əksinə, Ərdoğanın səfərinə bir neçə gün qalmış kürdlərə ağır silah verməyi qərarlaşdırdı. Ağ Ev sahibi Ərdoğanı fakt qarşısında qoydu. Bu, Trampın Ərdoğana həm də mesajı idi ki, "Səninlə görüşmək istəyirəm, ancaq qərarımı dəyişməyəcəm". Üçüncüsü, Ərdoğan Gülənin ekstradisiyasını istəyir. Tramp Ərdoğana onu ekstradisiya edəcəyini vəd etmədi. Ortaq mətbuat konfransında Ərdoğan həm PKK-ya bağlı YPG, PYD-nin, həm də Gülənin adını çəkdi. Tramp isə bu adları çəkmədən, sadəcə, terrorçulara qarşı birgə mübarizə vədi verdi. Yəni Tramp PYD və YPG-ni terrorçu təşkilatlar hesab etmir, hesab etsəydi, konkret adlarını çəkərdi. Bu səbəbləri nəzərə alaraq, Trampla Ərdoğanın ilk görüşünü uğurlu adlandırmaq çətindir. Trampın Ərdoğanın əlini sıxmasına, üzünə gülməsinə aldanmaq lazım deyil. Obama Ərdoğanın əlini daha çox sıxar və Trampdan da gülərüz ifadə şəkli sərgiləyərdi. Sonu nə oldu? Elə məhz Obamanın dövründə Suriyadakı silahlı kürdlərə dəstək qərarı verildi və Gülənin ekstradisiya edilməyəcəyi Ankaraya bildirildi. Tramp Obamanın bu siyasətini davam etdirir".

**Politoloq hesab edir ki, buna baxmayaraq, Ərdoğan Amerika ilə bütün körpüləri yandırmayacaq:** "Amerika Suriyada fəallaşmağa hazırlaşır və terrorçuların əlində olduğu Rakka şəhərinə hücuma hazırlaşır. Suriyada söz sahibi olmaq istəyən Türkiyə də bu əməliyyatdan kənarda qalmaq istəmir. Ona görə də Ərdoğan Trampla əməkdaşlıqdan qopa bilməz. Əks halda, Amerika İraq və Suriyada Türkiyəsiz hərəkət edəcək və əsas tərəfdaşı YPG və PYD olacaq. Bu isə Türkiyənin bölgədə təcridinə gətirib çıxara bilər. Digər tərəfdən, Tramp Türkiyəyə silah satmaq vədi verib. Əlbəttə, Ərdoğan və digər türkiyəli rəsmilər Vaşinqton qarşısında "PYD və YPG ilə əməkdaşlıq etməyin və Güləni bizə təhvil verin" istəklərini hər zaman səsləndirəcəklər, ancaq reallıq bundan ibarətdir ki, Ağ Ev bu istəkləri yerinə yetirməyəcək. Belə olan halda Ərdoğan ya Amerikanın əvəzinə Rusiyanı seçməlidir, ya da Vaşinqtonu tənqid etməklə yanaşı, onunla harda mümkündürsə əməkdaşlığı davam etdirməlidir. Məncə, Ərdoğan nə qədər eksentrik siyasətçi olsa da, ikinci variantı seçəcək və Amerikadan üz döndərməyəcək. Trampla Ərdoğanın növbəti görüşü böyük ehtimalla mayın 25-də NATO-nun zirvə toplantısında baş tutacaq".

**E.Şahinoğlunun sözlərinə görə, Ərdoğan indi Trampın nə zaman Türkiyəyə rəsmi səfərə gələcəyini gözləyəcək, ancaq bu səfərdən də böyük gözləntilər gözləməyə dəyməz:** "Vaxtilə Barak Obama ilk müsəlman ölkələrindən Türkiyəyə səfər etdi və o zaman Ərdoğan Obamanın müsəlman olduğuna işarə edərək "Barak Hüseyn Obama Türkiyəyə gəlir" deyirdi. Obama Ankara və İstanbulda müxtəlif görüşlərdə iştirak etdi, ancaq bu ikitərəfli münasibətlərdə keyfiyyət dəyişikliklərinə səbəb olmadı, heç nə dəyişmədi, tam əksinə, Vaşinqton Türkiyənin bölgədəki maraqlarını nəzərə almayaraq hərəkət etməyə başladı. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Ərdoğanın Amerikadan məlum istəkləri olduğu halda Vaşinqtonun da Türkiyədən istəkləri ola bilər. Məsələn, Ağ Evin əgər İranla bağlı nəsə planı varsa, Türkiyəni yanında görmək istəyəcək. Ankara bu istəyi qəbul etməyəcək. Belə olan halda Vaşinqtonun silahlı kürdlərə dəstək verəcəyindən vaz keçəcəyini və ya Güləni ekstradisiya edəcəyini gözləməyə dəyməz. Ancaq hətta Ankara Vaşinqtonun bütün istəklərini yerinə yetirsəydi belə, bu, o demək deyil ki, ABŞ Türkiyənin istəklərini yerinə yetirəcək. Soyuq müharibə illərində Türkiyənin Amerikaya, Amerikanın da Türkiyənin dəstəyinə ehtiyacı var idi. Soyuq müharibə 26 il bundan əvvəl SSRİ-nin çökməsi ilə bitib. Bölgədə yeni şərtlər yaranıb, hərə özü üçün çalışır. İş o yerə çatıb ki, NATO-nun bir üzvü Türkiyə digər üzvü Amerikanın PKK-nın simasında terrorçulara dəstək verməsindən vaz keçməsinə nail ola bilmir. Belə olan halda Ankara xarici siyasətdə və təhlükəsizlik məsələlərində alternativ yollara baş vurur".

**Politoloq Elçin Mirzəbəyli isə bildirdi ki, Ərdoğanın Trampla görüşünün nəticəsini bir neçə istiqamətdən dəyərləndirmək olar:** "Görüşdən öncə bir neçə məsələnin müzakirəyə çıxarılacağı, liderlərin əsasən YPQ və FETÖ məsələsində anlaşmağa çalışacaqları bildirilirdi.

Amma səfərdən 1 gün öncə, rəsmi şəkildə olmasa da Türkiyə prezidentinə bir neçə mesaj çatdırıldı. Bunlardan biri FETÖ terror qrupunun başçısı Fətullah Gülənin "The Washington Post" qəzetində yayımlanan "Artıq tanımadığım Türkiyə" məqaləsi və rəsmi Vaşinqtonun Türkiyədən FETÖ olayında həbs edilmiş İzmir Diriliş Kilsəsinin pastoru Endrü Brunsonun sərbəst buraxılacağı tələbini irəli sürəcəyi ilə bağlı idi. Həqiqətən də geniş tərkibdə görüşdə Brunsonla bağlı məsələ müzakirə olundu. Tramp isə öz çıxışında "ABŞ-ın Türkiyəyə PKK və İŞİD-ə qarşı mübarizədə dəstək verəcəyini" bildirdi, YPQ və PYD-nin adını çəkmədi. Görüşün bizə bəlli olan təfərrüatlarından belə anlaşılır ki, tərəflər Suriya məsələsində, xüsusilə də YPQ və PYD ilə bağlı yekun razılaşmaya nail ola bilməyiblər. FETÖ məsələsində də ciddi anlaşmanın olmadığı ortadadır. Bununla yanaşı, Suriya və FETÖ məsələsindən kənar digər istiqamətlərdə münasibətlərin inkişafı ilə bağlı razılaşmaların olduğu və hər iki prezidentin görüşdən razı qaldığı hiss olunur. Qərb mətbuatı iki liderin görüşünü "Tərəflər anlaşmamaq məsələsində anlaşdılar" kimi təqdim edib. Bu isə o deməkdir ki, Türkiyə ilə ABŞ arasında təmaslar ən müxtəlif istiqamətlərdə genişləndiriləcək. Vaşinqton və Ankaranın razılaşa bilmədikləri məsələlər isə hələlik ciddi müzakirə predmeti olmayacaq. Ankara da öz növbəsində YPQ, PYD və FETÖ məsələsi ilə bağlı israrlı mövqeyini davam etdirməyəcək".

❑ **Etibar SEYİDAĞA**

# Ağır atletin xaç çəkməsi



**Xalid KAZIMLI**

**İnternet resurslarında yayılan bir video insanlarda gülüş doğurur. İlk baxışdan doğrudan da gülməlidir. Atlet İslamiadada yarış meydançasına çıxır, sifariş etdiyi ağırlığı müvəffəqiyyətlə başı üzərinə qaldırır, lazımi qədər gözləyir, sonra ağırlığı başı üzərindən döşəməyə buraxır və xaç çevirir.**

İslam oyunları və xaç çevirmə olayı. Paradoksal görünür və bu, insanların yumor damarını tərpədir.

Bu mənzərədən anlaşılan odur ki, həmin ağır atlet hansısa Afrika ölkəsini təmsil edən, dini mənsubiyyət etibarilə xaçpərəst (xristian) olan birisidir.

Biz həmin mənzərəni İslamiadayla paradoksal hesab etdiyimizə görə gülürük. Halbuki burada gülməli heç nə yoxdur. Ona qalsa öz idmançılarımız arasında da kifayət qədər xristian, buddist (məsələn, çinli, koreyalı legionerlər) var. Onların yarışı başa çatdırdıqdan sonra xaç çevirmələri, "Krişna" deyə səslənmələri o anlama gəlməz ki, onlar dinlərindən dönüblər. Sadəcə, onlar öz dini mənsubiyyətlərini dair afişa açmırlar.

Elə idmançılar da var ki, bəzən özlərindən asılı olmadan, bəzən də qəsdən öz dini mənsubiyyətlərini minlərlə tamaşaçıya göstərirlər. Belə hadisələri biz futbol matçlarında da görürük. Qol vuran futbolçu ya xaç çevirir, ya namaz qılırmış kimi çəmənə çökür, sonra əlini göyə qaldırıb Allaha dua edir, ya da üst köynəyini çıxarır və alt köynəyində İsa peyğəmbərə sevgi izharı həkk olunmuş yazılar görünür.

Bunlar normaldır. Dünyanın əksər ölkələrində din və etiqad azadlığı var. Ən qatı katoliklərin ölkəsində keçirilən milli çempionatlarda yüzlərlə, müsəlman və ya buddist idmançılar yarışır və heç zaman dini mənsubiyyət idman peşəkarlığından önə keçmir.

Din əqidə, düşüncə, məfkurə məsələsidir. Bir dindar katolik ailəsində doğulmuş övlad böyüdükdən sonra istəsə müsəlman ola bilər. Yaxud yeddi arxa dönəni müsəlman olmuş bir gəncin əqidəsinə daha uyğun bildiyi halda protestant, krişnait olması mümkündür.

Burada nə bir faciə var, nə damğalamalı reneqatlıq, dönüklük-filan.

Bu baxımdan İslam oyunlarına qatılmış idmançının xaç çevirməsi qəribə olay deyil.

Əslində dini müstəvidə yarışma təşkil etməyin özü qəribə görünə bilər. Əgər bu normal bir şey olsaydı, xristian ölkələri (və ya buddizmə tapınan ölkələr) çoxdan belə bir yarışma təşkil edərdilər.

Bu, insanlar arasında ayrı-seçkilik qoyulması anlamına gəlir. Müasir yarışmalar bir qayda olaraq coğrafi məkanlar müstəvisində təşkil edilir. Avropa dövlətləri Avropa çempionatı keçirir, Asiya ölkələri Asiya çempionatında qarşılaşırlar. Afrika kuboku da var, Amerika birinciliyi də. Bütün dünya ölkələri isə olimpiadada, mundiallarda üz-üzə gəlirlər.

Ancaq sırf dini mənsubiyyət əlamətinə görə yarışmanı məhz müsəlman ölkələri təşkil edib. Burada daha bir diqqətçəkən məqam isə yarışa qatılan dövlətlərin özlərini "islam dövləti" adlandırmalarıdır. Bir neçə teokratik rejimə malik dövlətdən başqa digərlərində belə bir rəsmi ünvan yoxdur. Həmin ölkələrdə din dövlətdən ayrı olduğu üçün belə şey ola bilməz. Üstəlik, çoxluğun dini mənsubiyyətinin qabardılması insan haqlarına ziddir, digər dini azlıqlara basqı deməkdir.

Elə dövlətlər var ki, onun milyonlarla vətəndaşı müsəlmandır, amma onlar İslamiadada iştirak edə bilmirlər, çünki həmin dövlət özünü "müsəlman ölkəsi" adlandırmır. Məsələn, Rusiyada on milyonlarla müsəlman yaşayır və bu ölkənin idmançılarının az qala yarısı dini mənsubiyyət etibarilə müsəlmandır. Ancaq bu idmançılar yarışmada olmadığı halda, məsələn, Kamerundan gələn xristian idmançı İslamiadada iştirak edir, hətta medal qazanır.

Əslində bundan sonra həmin yarışmanı elə təşkil etmək olar ki, dini mənsubiyyət ön plana çıxmasın, arzu edən bütün dövlətlər yarışmaya qatıla bilsinlər.

Ən yaxşısı isə idman yarışları zamanı dini mənsubiyyətə önəm verməməkdir. İdman özü az qala bir dindir, öz prinsipləri, etik davranış kodeksləri, öz çərçivələri, yasaqları halal-haramı (məsələn, dopinq qəbul etmək) var.

Yox, əgər indilikdə məhz bu cürdürsə, onda tolerant olmaq, ağır atletin xaç çəkməsinə də dözümlü yanaşmaq lazımdır.

Burada dözümlü yanaşmaq, sadəcə, mənzərəyə gülərək baxmamaqdan, bunu qəribə və sıradışı hesab etməməkdən ibarətdir.

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

**Bu il fevral ayının 13-də prezident İlham Əliyevin sərəncamı ilə ləğv edilən Nəqliyyat Nazirliyinin sabiq rəhbəri Ziya Məmmədov hələ də heç bir vəzifəyə təyin olunmayıb. Əksinə, sabiq nazirə məxsus obyektlərin, restoranların onun əlindən alınması ilə bağlı informasiyalar dolaşır. Təcrübə göstərir ki, hökumət heç bir sadiq kadrını bu qədər müddət işsiz saxlamayıb. Bəs belə olan halda, nə üçün ona qarşı bu cür münasibət sərgilənir?**

# Ziya Məmmədov niyə "küçədə qalıb?"

## **Sərdar Cəlaloğlu:** "Ziya Məmmədov ölənə qədər Azərbaycandan xaricə buraxılmayacaq"

## **Elxan Şahinoğlu:** "Məmmədovlar düşünürdülər ki, Tramp qələbə çaldısa, onların mövqeləri daha da güclənəcək, amma..."

**ADP sədri Sərdar Cəlaloğlu** "Yeni Müsavat"a bildirib ki, Ziya Məmmədov əməlləri ilə "qırmızı xətti" keçib, buna görə də vəzifədən azad edildi:

"Ziya Məmmədovun Azərbaycanda yol-tikinti sahəsində nəhəng korrupsiya faktları ilə bağlı mətbuatda çoxlu faktlar var, ancaq bu səbəbdən işdən çıxarılmayıb. Deyə bilərik ki, hakimiyyət insanları vətənə, dövlətə xəyanətə görə yox, şəxsi sədaqətsizliyə görə cəzalandırır. Ziya Məmmədovun və oğlunun Trampla, Amerika Konqresi ilə qurduğu əlaqələr hakimiyyət üçün arzuolunmaz fəaliyyət idi. Çünki biznes fəaliyyəti qurmağa icazə olsa da, siyasi fəaliyyət qurmaq hakimiyyət üçün "qırmızı cizgi"ni keçməkdir. Ziya Məmmədov və onun oğlu da məhz bu xətti keçmişdi. Bu mənada Əli İnsanov və Fərhad Əliyevin də adını qeyd etmək olar. Bu baxımdan, düşünmürəm ki, Ziya Məmmədovu yenidən hakimiyyətə gətirib, ona vəzifə verəcəklər. Çünki artıq sədaqətsizliyini nümayiş etdirib və ikinci dəfə ona şərait yaratmazlar. Düşünürəm ki, onu xaricə də buraxmayacaqlar. Çünki bu cür şəxslərin xaricə buraxılması hakimiyyət üçün çox ciddi problemlər yarada bilər. Hakimiyyət bir dəfə Rəsul Quliyevi xaricə buraxmaqla belə səhvə yol verib. Nəticədə kifayət qədər başları ağrıyıb. Ziya Məmmədov isə iqtidarın fəaliyyəti ilə bağlı Rəsul Quliyevdən də çox məlumatlıdır. Belə bir adamın xaricə gedib, həmin məlumatları mətbuatda, xaricdəki dairələrə sızdırması mümkündür. Ona görə də Ziya Məmmədov ölənə qədər Azərbaycandan xaricə buraxılmayacaq".

**Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Ziya Məmmədov məsələsində Trampın adı və rolu çox şişirdilib:** "Bəlkə də Trampın yanında Ziya Məmmədovun adını çəksələr, o, bu ad və soyadı birinci dəfə eşitdiyini bildirər. Ola bilər ki, Trampın qızının Ziya Məmmədovun oğlu Anarla müəyyən iş birliyi olub. Ola bilər ki, Məmmədovlar ailəsi düşünürdülər ki, Tramp Klintonun üzərində qələbə çaldısa, bu, onların mövqelərini daha da gücləndirəcək. Ancaq göründüyü kimi, bunun tam əksi yaşandı. Belə olacağını öncədən zənn edirdim. Çünki Trampın qələbəsindən öz məqsədləri üçün istifadə etmək, Azərbaycanın dövlət siyasətini şantaj etməyə bənzəyirdi. Elə məncə, bu yanaşmanın özü Ziya Məmmədovun iqtisadi sistemini çökdürdü. Çünki aydındır ki, bu cür şantaj tonunda dövlətlə danışmaq olmaz. Demirəm ki, Məmmədov bunu haradasa dilə gətirib. Ancaq hiss olunurdu ki, Trampın qələbəsindən çox qürrələniblər və bundan istifadə etmək istəyirlər. Reallıq budur ki, Ziya Məmmədov nazir olduğu dönəmdə, insanların ən çox şikayət etdikləri sahə nəqliyyat sahəsi idi. Özü nəqliyyat naziri idi, bütün nəqliyyat sistemində inhisarçılıq da oğlunun əlində idi.


Ziya Məmmədov

Yəni bu dərəcədə özlərinə arxayın idilər. Büdcədən ən çox pul nəqliyyat sahəsinə, yolların çəkilməsinə ayrılırdı. Halbuki diqqət etsək görərik ki, 25 il üçün tikilən yollar 2-3 il sonra dağıldı. Xüsusilə də Bakı Beynəlxalq Avtovağzal Kompleksinin yollarını qeyd etmək olar ki, insanlar ən çox oradan şikayət edirdilər. Əl qoyduqları sahədə Məmmədovların heç bir uğuru yox idi. Sadəcə olaraq, topladıqları pulların hesabına dövlətə nəyisə diktə etmək istəyirdilər".

**Politoloq bildirib ki, Ziya Məmmədovun yenidən vəzifəyə gəlmək şansı yoxdur:** "Əgər elə olsaydı, oğlu nə üçün Londonda gizlənirdi? Əgər deyirlərsə ki, əllərindəkini halal yolla qazanıblar, o zaman elə oğlu Azərbaycanda işləyərdi də... Hesab etmirəm ki, bu cür hadisələrdən sonra Məmmədovun geri dönüşü reallaşsın. Trampdan öncə də Ziya Məmmədovun neytrallaşdırılmasına qərar verilmişdi. İllər öncə gördük ki, bütün strukturları tədricən əlindən alınıb, bir başqa nazirliyə verilirdi. Ziya Məmmədov son zamanlar, faktiki olaraq, "portfelsiz nazir"ə çevrilmişdi. Bir zamanlar özlərindən o qədər razı idilər ki, hətta sizin əməkdaşınızın da üstünə müxtəlif adamları salmışdılar. İndi isə bütün dayaqları itib, bəzi biznes strukturları da əllərindən alınıb. Deməli, əldə etdikləri qanunsuz yolla qazanılıb ki, əlindən alınır və sən susursan. Hesab edirəm ki, bu cür addımlar gücləndiriləcək. Oliqarxik sistem, inhisarçılıq Azərbaycanı uçuruma aparır. Dövlət başçısı da hiss olunur ki, bu sistemi bir qədər dəyişmək istəyir. Kiçik rüşvətin qarşısı "ASAN Xidmət"in vasitəsilə alındı. İndi isə əsas məsələ inhisarçılığa son qoymaqdır ki, prezident də bu barədə açıqlamasında bildirib. Eyni zamanda bu istiqamətdə müəyyən işlər də aparılır. Ziya Məmmədovun da istefaya göndərilməsi məhz bu işlərdən biridir. Bu mübarizəni gücləndirmək lazımdır ki, Ziya Məmmədov olayı başqalarına da dərs olsun".

❑ Əli RAİS

# Ramazan bayramında əfv sərəncamı imzalana bilər

## **Novella Cəfəroğlu:** "Müəyyən şəxslərlə görüşlər olur, bu istiqamətdə iş gedir"

**Azərbaycanda növbəti əfv sərəncamının iyun ayında veriləcəyi barədə məlumatlar var. Redaksiyamıza daxil olan məlumata görə, 423 nəfəri əhatə edən sonuncu əfv sərəncamı bu ilin martında verildiyi üçün 28 May Respublika günündə əfv olmayacaq. Mənbəmizin dediyinə görə, əfvin iyun ayına ertələnməsinin mühüm səbəbləri var.**


Novella Cəfəroğlu

Belə ki, iyunun 26-27-si Ramazan bayramı qeyd olunacaq. 2017-ci il ölkə prezidentinin sərəncamı ilə Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Üstəlik, ölkəmiz hazırda davam edən çox mühüm yarışmaya - IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edir. Odur ki, növbəti humanist addımın məhz bu münasibətlə atılması olduqca məntiqli görünür. Qeyd edək ki, 26 iyun həm də Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü kimi qeyd olunur və bu il ordumuzun 99 yaşı tamam olacaq. İki əlamətdar bayram münasibətilə əfvin imzalanması hər kəsin ürəyincə olardı.

Düzdür, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilməyib. Ancaq mütəmadi şəkildə komissiyaya müraciətlərin ünvanlandığını nəzərə alsaq, iclasların qarşıdakı zaman kəsiyində də keçirilməsi mümkündür. Onu da qeyd edək ki, əfv sərəncamları çox hallarda Novruz bayramı, yaxud 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə imzalanıb. Lakin prezidentin müstəsna səlahiyyətlərinə daxil olduğu üçün dövlət başçısı istənilən zaman bununla bağlı qərarını verə bilər. Yeri gəlmişkən, 2012-ci ilin 22 iyununda bir sıra tanınmış siyasiləri də əhatə edən 66 nəfərə şamil olunan əfvin imzalanması da faktdır.

**İnsan haqları müdafiəçisi, Dilarə Əliyeva adına Qadınları Müdafiə Cəmiyyətinin rəhbəri Novella Cəfəroğlu musavat.com-a açıqlamasında gözləntilərin əbəs olmadığını bildirdi:** "Növbəti əfv fərmanının konkret nə zaman imzalanacağını dəqiq bilmirik, amma biz də ümidlə gözləyirik. Düzdür, hələ Prezident yanında Əfv Məsələləri Komissiyası toplaşmayıb, lakin bizim dəqiq məlumatımız var ki, əfv olacaq. Çünki müəyyən şəxslərlə görüşlər olur, bu istiqamətdə iş gedir". **N.Cəfəroğlu dedi ki, onlardakı siyasi məhbusların siyahısında 34 nəfərin adı var və o şəxslərin də əfvə salınacağına ümid edir:** "Beynəlxalq təşkilatlarda da bununla bağlı arzu-istək var. Onların buraxılması Qərblə münasibətləri də xeyli yumşaldar. Hələlik gözləyirik".

❑ Cavid TURAN

# Vidadi Zeynalovun 4 vəkili yoxa çıxıb

## "Rabitə işi"ndə müəmma; sabiq məmurun müdafiəçilərinin heç biri məhkəməyə gəlmədi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə mayın 17-də keçirilməli olan növbəti məhkəmə prosesi baş tutmayıb.**


Vidadi Zeynalov

Musavat.com xəbər verir ki, təqsirləndirilən şəxslər məhkəməyə gətirilsə də proses baş tutmayıb. Buna səbəb Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq aparat rəhbəri Vidadi Zeynalovun vəkillərinin prosesə gəlməməsi olub.

Səhər saat 10:00-a təyin edilən məhkəmə Vidadi Zeynalovun 4 vəkilinin heç biri olmadığından saat 14:00-dək təxirə salınıb.

Günortadan sonra başlamalı olan məhkəmə prosesi yenə də təxirə salınıb. Səbəb yenə də V.Zeynalovun vəkillərinin prosesə gəlməməsi olub. Vidadi Zeynalov vəkillərindən xəbərinin olmadığını deyib.

**Digər vəkillər isə buna etiraz ediblər. Təqsirləndirilənlərdən "Aztelekom"un sabiq rəhbəri Məhəmməd Məmmədovun vəkili Şahin Rəfiyev bildirib ki, əgər vəkillər gəlməyəcəksə, qabaqcadan xəbərdarlıq edilməlidir:** "11 nəfər təqsirləndirilən şəxsi həbsxanadan gətiriblər, bütün vəkillər buradadır. Amma proses baş tutmur. Əgər məhkəməni uzatmaq istəyirlərsə, əvvəlcədən desinlər ki, nə qədər vaxt istəyirlər. Onsuz da içəridə yatan onların hüquqlarını müdafiə etdiyi şəxsdir. Biz başqa proses təyin edə, iş görə bilmirik".

Hakim vəkillərin tapılması, onlarla əlaqə saxlanılması üçün məhkəməni saat 17:00-dək növbəti dəfə təxirə salıb.

Bildirək ki, mayın 17-də Vidadi Zeynalov ötən prosesdə yarıda qalan ifadəsini davam etdirməli idi. O, 54 səhifəlik sərbəst ifadəsinin hələlik qısa bir hissəsini oxuyub.

Qeyd edək ki, ittihama görə, nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinirlər. Cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.

❑ İ.MURADOV

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

# Kreml Bakıdan nə istəyir və ya ÜAK-ın ləğvinin pərdəarxası

**Rusiyada fəaliyyət göstərən Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatının ləğvi erməni lobbisinin imkanları hesabına həyata keçirilib. Bunu «Trend»ə Milli Məclisin deputatı Rövşən Rzayev deyib. Rusiyada Azərbaycanın əleyhinə işləyən bəzi qüvvələrin olduğunu deyən R.Rzayev ÜAK-ın ləğvini də ermənilərin təxribatı sayıb.**



**Tofiq Zülfüqarov:**
"Demək lazımdır ki, "ay camaat, Rusiya bizdən bunu istəyir, sizin münasibətiniz necədir?"



**Elçin Mirzəbəyli:**
"Rusiya daha az şeylə, ya da heç nə vermədən Azərbaycanı qazanmaq istəyir"

"Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir. Ermənistan belə məsələləri ortaya atmaqla Dağlıq Qarabağ münaqişəsinin həlli prosesini arxa plana salmağa çalışır" - o bildirib. Rusiya ilə Azərbaycanın müttəfiq ölkə olduğunu xatırladan deputat hesab edir ki, iki ölkə arasında münasibətlər çox müsbət istiqamətdə inkişaf edir.

Qeyd edək ki, professor İlham Rəhimov ötən ay ÜAK-la bağlı "Yeni Müsavat"a müsahibəsi zamanı məsələyə biganə olmadığını deyərək bildirmişdi ki, məhkəmə ərəfəsində Moskvaya gedəcək və müvafiq dairələrlə görüşəcək. "İndi gözləyirəm ki, hər halda, mənim xahişimi nəzərə alacaqlar" - İ.Rəhimov demişdi. Ancaq göründüyü kimi, Kreml qərarını dəyişmədi - hətta Putinin tələbə yoldaşı olmuş tanınmış hüquqşünasın təşəbbüslərinə rəğmən.

Ortaya çıxan sual isə budur: Kreml Azərbaycandan nə istəyir ki, onun diaspora təşkilatının fəaliyyətini müxtəlif bəhanələrlə yasaqlayır? Burada erməni barmağı varsa da, qərarı verən Rusiya dövlətidir, deməli, Moskva bu addımın Azərbaycanla münasibətlərə xələl gətirə biləcəyini nəzərə alıb ÜAK-a sənədlərini qaydaya salmaq şansı verə bilərdi.

ÜAK-ın sənədlərindəki problemlərin vaxtında aradan qaldırılmadığını deyib təşkilat rəhbərliyini qınayanlar da var. Eyni zamanda hesab olunur ki, Rusiyadakı səfirimiz Polad Bülbüloğlunun fəaliyyətsizliyi, zamanında proseslərə müdaxilə edə bilməməsi vəziyyətin qəlizləşməsinə səbəb olub. Hətta rusiyalı təhlilçi Denis Korkodinov öz məqaləsində "ÜAK-ın ləğvinə yardımçı olan üçüncü qüvvə kimi Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qeyd oluna bilər. İş ondadır ki, diplomat bu təşkilatı marionet bir quruma çevirib öz opponentlərinə qarşı şəxsi intriqalar üçün istifadə edirdi" - yazıb.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov hesab edir ki, Kreml Bakıdan çox şey istəyə bilər:** "Xarici işlər naziri Rusiyaya rəsmi səfər edib. İnanmıram ki, bu tələblər bizə çatdırılmayıb. Bizim xarici siyasətlə məşğul olanlar Rusiya və ya digər ölkələrlə bağlı vəziyyəti açıqlamalıdır ki, biz də bilək problem nədədir. Aydın məsələdir ki, Azərbaycan Rusiya üçün vacib müttəfiqdir, təkcə regionda deyil, həm də beynəlxalq səviyyədə". **Sabiq nazir dedi ki, silsilə təzyiqlərə bənzəyən hadisələr baş verir:** "ÜAK-ın bağlanması sonuncu təzyiqdir. Mən bu təzyiqlərin keçən ilin avqustundan başladığı qənaətindəyəm. Ondan sonra ermənilərə silah verildi, Lavrovun bəzi açıqlamaları oldu, Bordyuja bəyanat verdi. Yəni silsilə hadisələr baş verdi. Hələ mən demirəm ki, Rusiya televiziyaları harda imkan varsa, erməniləri təbliğ edir, Azərbaycanın əleyhinə təbliğat aparır. Heç İslam Oyunları barədə də bir süjet görmədim. Bu, təsadüfi deyil".

**ÜAK-ın bundan sonrakı taleyinə gəldikdə, T.Zülfüqarov bunları dedi:** "Burada böyük problem görmürəm. Həmin təşkilat başqa adla yenidən yaradıla bilər. Bölgələrdəki yerli təşkilatlar da yenidən təşkilatlana bilər. Amma dediyim kimi, bu təzyiqlər silsilə xarakterlidir və bir növ siyasi jestdir. Sadalanan hadisələri götürsək, bu siyasətin kökündə nə isə var. Təbii ki, Rusiyanın Azərbaycandan tələbləri ola bilər. Ancaq açıqlamaq lazımdır ki, bunu ictimaiyyət də müzakirə etsin, ya "hə", ya "yox" desin, Rusiya da xalqın mövqeyini bilsin. Bu, Qarabağ məsələsinə, yaxud digər məsələlərə aid ola bilər. Demək lazımdır ki, ay camaat, Rusiya bizdən bunu istəyir, sizin münasibətiniz necədir? Xalqın rəyinin əsasında da hökumətin reaksiyası olmalıdır. Bu, siyasətdə qəbul olunmuş normadır, ermənilər həmişə bundan istifadə edirlər. Elə isə biz də istifadə edək".

**Ekspert baş verənlərdə səfirin rolunun yüksək olduğunu düşünmür:** "Səfirin fəaliyyəti hansısa məqamda rol oynaya bilər, ancaq bu, əsas məsələnin yanında bir dekorasiyadır. Polad Bülbüloğlu hansısa addımı atsaydı, bu, o demək deyil ki, qərar qəbul olunmazdı. Fakt budur ki, artıq Rusiya tərəfindən müsbət addımlar görmürük. 9-10 aydır ki, şimaldan Azərbaycana qarşı normal addımlar görmürük. Azərbaycan tərəfi bu müddət ərzində reaksiya verməməyə çalışırdı, nəticə olmadı".

**"Rusiyanın Azərbaycana qarşı təzyiqləri artıq xeyli müddətdir ki, qabarıq şəkildə nəzərə çarpır. Ötən ilin aprel ayından sonra baş verən döyüşlərdən sonra biz bu təzyiqləri açıq şəkildə hiss edirik". Bu fikirlər isə politoloq Elçin Mirzəbəyliyə məxsusdur. Ekspert "Yeni Müsavat"a bildirdi ki, Ümumrusiya Azərbaycanlıları Konqresinin qeydiyyatının ləğvi siyasi qərardır və qərarda yer alan iddiaların heç bir hüquqi əsaslandırılması yoxdur:** "Qeydiyyatın ləğvi ilə bağlı məhkəmə qərarında bildirilir ki, qurumun nizamnaməsinin müddəaları mövcud qanunvericiliyə uyğun deyil. Qeyd edim ki, ÜAK-ın mövcud Nizamnaməsi Ədliyyə Nazirliyində qeydiyyatdan keçib və əgər nizamnamənin hansısa müddəaları Rusiya qanunvericiliyinə uyğun deyilsə, buna görə Ədliyyə Nazirliyi məsuliyyət daşıyır. ÜAK isə Rusiya Ədliyyə Nazirliyinin təsdiq etdiyi nizamnamə əsasında fəaliyyət göstərib. Bu isə tamamilə qanunauyğundur. Məhkəmə qərarında yer alan başqa bir iddia qurumun adının onun fəaliyyətinin xarakterinə uyğun gəlməməsi ilə bağlıdır. Bu, o qədər gülünc iddiadır ki, hətta danışmağa belə xəcalət çəkirsən. Rusiyada ən müxtəlif adlarda diaspor qurumları qeydiyyatdan keçib, fəaliyyət göstərir: Rusiya Ermənilər İttifaqı, Rusiya Taciklər İttifaqı, çeşidli birliklər, mədəni muxtariyyətlər və s. Yəni Ədliyyə Nazirliyinin iddiaları bəhanədən başqa bir şey deyil. Dovşan və qurdla bağlı məşhur "Papağın niyə yoxdu" lətifəsində olduğu kimi". **Amma E.Mirzəbəyli hesab edir ki, ÜAK-ın ləğvini faciəyə çevirmək lazım deyil:** "Biz bunu zərbə kimi qəbul etməməliyik. Baş verənlərdən sarsıldığımızı göstərməməliyik. Rusiyanın qarşısında əsla zəif və aciz görünmək olmaz".

**Politoloq deyir ki, Rusiyanın Azərbaycana təzyiqlərinin bir neçə səbəbi var:** "Onlardan bəziləri klassik səbəblərdir və ənənəvi imperiya iddialarından qaynaqlanır. Digər səbəblər isə Rusiyanın seytnot vəziyyətində olması və qarşıdan gələn təzyiq dalğasına qədər öz peyk ittifaqını qurmaq istəyi onu tələsik və aqressiv addımlar atmağa məcbur edir. Rusiya daha az şeylə, ya da heç nə vermədən Azərbaycanı qazanmaq istəyir. Təzyiqlərin, burada haqqında danışmaq istəmədiyim müxtəlif provokasiyaların arxasında da bu dayanır. Rusiyanın öz layihələrinin skletini qurmaq üçün cəmi 1 il vaxtı var. Sonra buna nail ola bilməyəcək".

**Qarşıda isə apelyasiya şikayəti var. Bir çoxları ümid edir ki, prosesə prezidentlərin qatılması vəziyyəti yaxşılığa doğru dəyişəcək və Azərbaycanın ən böyük diaspora təşkilatına növbəti dəfə şans veriləcək. Bunun üçünsə paralel şəkildə hüquqi addımlar atılmalı, apelyasiya şikayəti təqdim olunmalı, müdafiə üçün zəruri işlər görülməlidir.**

❑ **E.PAŞASOY**

# İrandakı seçkiləri izləməyə dəyərmi?



**Hüseynbala SƏLİMOV**

**Bu həftə İranda da prezident seçkiləri baş tutmalıdır. Doğrusu, bu haqda bütün ciddiliyi ilə danışa bilmirsən, çünki İran necə dövlətdir və burada azad seçkilər və demokratiya hansı həddədək icazəlidir,- bunlar hamıya bəllidir...**

Amma gəl ki, biganə də qala bilmirsən, çünki İran özünü diqqətə gətirməyi bacaran ölkələrdəndir. Seçkilərə gəldikdə, burada bir epizod düşür yadıma.

Bir dəfə bir əcnəbi politoloq dedi ki, seçki əsl demokratiyanın hələ ilk pilləsidir, çünki əsl demokratiya azad seçkilərdən savayı da özündə çox şey ehtiva edir.

Mənim üçün yenilik deyildi bu. Bilirdim ki, yalnız düzgün seçkilərlə öyünən ölkələri demokratiya nəzəriyyəçiləri hətta xüsusi adla - totalitar və yaxud da elektoral demokratiyalar adlandırırlar.

Amma o vaxt düşündüm ki, əcəba, bu əcnəbi politoloq nə qoyub, nə axtarır? Onlarla ölkə var ki, orada heç əməlli-başlı, bütün parametrlərə cavab verən seçki də yoxdur...

Belələrindən biri də İrandır. Demirəm ki, məhdud dairədə düzgün seçkilər keçirmirlər, yox, qutuya atılan bülletenləri düz sayırlar. Amma namizədləri əvvəlcə ruhani elitası seçir. Problem də bundadır.

Ona görə də bu ölkədə seçkilər hansı həddə qədər düzgün və "demokratik" sayıla bilər, - bunu artıq özünüz müəyyən etməlisiniz. Bəli, demək olardı ki, İranda heç olmasa, məhdud dairədə düzgün seçki keçir, bəzi keçmiş sovet ölkələrində bu da yoxdur.

Nə demək olar? Düşünürəm ki, sizə müəyyən qədər haqq vermək olar, çünki doğru irad qarşısında adam həqiqətən aciz qalır...

Qərəz, İranda spesifik siyasi "filtr" var və bunun nəticəsidir ki, indiki ruhani rejimini ciddi şəkildə transformasiya etmək istəyənlər hakimiyyətə gəlmir, namizədlərin də "liberal"lara və "mühafizəkar"lara bölünməsi şərti xarakter daşıyır.

Bu şərtilikdən indi də qaçmaq mümkün deyil. Bəli, İranda namizədlərdən bir neçəsi "liberal", qalanları isə "mühafizəkar" adlanır. Birinci düşərgənin siyasi lideri hazırkı İran prezidenti H.Ruhanidir və digər "liberallar"ın sadəcə, ona dəstək olmaq üçün seçkilərə qatıldığı sanılır. Əks tərəfsə hələki özünün siyasi liderini müəyyən etməyib və deyəsən, axıra qədər mübarizə aparmaq əzmindədir.

Amma bizə elə gəlir ki, indiki prezidentin - H.Ruhaninin şansları daha böyükdür və böyük bir ehtimalla H.Ruhani ikinci müddətə seçiləcəkdir...

Amma nə dəyişəcək? Elə ən qəliz suallardan biri də budur. Düzdür, H.Ruhaninin dövründə ABŞ-la müəyyən anlaşma quruldu. Amma bu da daha çox onunla bağlı idi ki, B.Obama iki "geosiyasi cəbhədə"-həm İran, həm də Rusiya ilə çarpışmaq istəmədi.

Üstəlik, D.Tramp prezident seçiləndən sonra B.Obamanın digər işləri kimi İranla anlaşmasını da şübhə altına qoydu. Yeri gəlmişkən deyək ki, məhz bu amil İranda "mühafizəkar"ların mövqelərini möhkəmləndirə və Ruhani üçün problem yarada bilər...

İranla bağlı başqa suallar da var. Ən birincisi də budur ki, görəsən, teokratik üsul-idarə nə vaxta qədər davam edəcəkdir? Bunun sonu olacaqmı? Təəssüf, bu haqda yalnız ümumi sözlər demək olur.

Amma ən əsası heç bilirsinizmi nədir? Radikal dini ideologiyalar iddia edir ki, guya şəriət dövləti, dini ölkə qurandan sonra əsl ədalət bərqərar olacaq və insanlar, belə demək mümkünsə, cənnətdə yaşayacaq. Di gəl, reallıq bunun aldadıcı olduğunu göstərir.

Baxın, İran şəriət ölkəsidir, teokratik dövlətdir. Amma dini utopistlərin iddia etdiyi cənnət varmı orada?

Yaxud Səudiyyə Ərəbistanını xatırlayın. Teokratik ölkədir, di gəl, nə cənnət var, nə də İlahi ədalət. İslam Respublikası adlanan Pakistan da siyasi azadlıqlar və iqtisadi rifah baxımından çox "axsayır"...

Nə qalır? Hələ U.Çerçill deyirdi ki, demokratiya ideal deyil, amma bundan yaxşısını düşünməyiblər. Bu sözlərdə böyük həqiqət var. Onu qəbul edəndə müsəlman dünyasında həqiqi dirçəliş başlayacaq. Məlum olacaq ki, totalitar utopiyaların (radikal dini ideologiyalar da bu qəbildəndir) ardınca getməyə dəyməz, bundansa azad seçki keçirmək, insan haqlarını və demokratiyanı təmin etmək lazımdır. Onda hər şey olacaq - sosial rifah da, azadlıq da, eləcə də əsl vicdan və etiqad azadlığı da...

Fəqət, müsəlman Şərqinin ictimai-siyasi barometri hələ başqa şey göstərir. İran bir yana, yaxınlarda Türkiyənin telekanallarından birində aparıcı açıqca sevinclə dedi ki, basketbolçu qadınlara da baş örtüyü taxmağa icazə veriləcək, sanki onlar baş örtüyü taxsa, cəmi müsəlman dünyası qurtulacaq...



# Vətəndaş Çovdarovun müharibəsi

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud kənd təsərrüfatı nazirinin oğlu hansı traktoru sürməlidir

**Kənd təsərrüfatı nazirimiz Heydər müəllim haqda son günlər kütləvi və qeyri-kütləvi (iqtidarın bloklama, repressiya siyasəti sayəsində bizdə artıq bu cür jurnalistika da yaranır) informasiya vasitələrində yazılanları oxuyanda çox məşhur ata sözlərimizdən biri yada düşür: "Sən saydığını say, gör fələk nə sayır".**

Məsələ ondadır ki, Heydər Əsədov Azərbaycanın ən yeni tarixində və ən pullu vaxtlarında - 2007-2013-cü illərdə Hesablama Palatasının sədri olubdur. Bu palatanın əsas funksiyası isə dövlət büdcəsinə nəzarətdir, ora girib-çıxan pulların, o cümlədən dövlət əmlakının necə idarə edilməsi haqda rəy yazmaqdır. Bəs Heydər müəllim belə rəylər yazırdımı? Yox. Əksinə, hər il gedirdi deputatxanada hesabat verirdi ki, dövlət büdcəsində korrupsiya nədir, heç qığı da görünməyibdir, hamı yaxşı, düzgün işləyir, bir qəpik dövlət malına göz dikilmir və sairə.

Əlbəttə, Heydər müəllim o dövrün əsas pul maşınlarından olan qudası - nəqliyyat naziri Ziya müəllim haqda nəsə pis hesab çıxarda bilərdimi? O zaman dövlətçiliyimizin əsas bel sütunlarından biri - qohumbazlıq sarsılardı. Başını aşağı salıb hesabatının haqqını yeyirdi, oğul-uşaq da Londonda maşın ötüşdürürdü.

Bax, elə Londondakı maşının şəkli də nədənsə gəlib indi Bakıya çatıbdır. Çünki qarı şey olub, quda vurulub, qapı bağlanıb və indi yuxarıda yazdığım məsəlin ikinci hissəsinin dövrüdür. Fələk saymağa başlayıbdır, bu isə tarixən haqq-hesabın ən pis hissəsi sayılır.

Özü də hara fırlatsan uşağın Dumanlı Albionda "Porşe" ilə şütüməsi dövlətçilik prinsiplərimizə uyğun gəlmir. Çünki Heydər müəllim palatada neft dollarlarını sayıb qurtarandan, ölkə də postneft erasının böhranına kəllə vurandan sonra kənd təsərrüfatını dirçəltməyə göndərilib və kənd təsərrüfatı nazirinin oğluna Sabirabadda pambıqyığan kombayn, Kürdəmirdə DT-75 traktoru sürmək yaraşardı. Yoxsa "Porşe"... Bu maşınla heç fermadan bidonla süd də daşımaq olmaz.

Fələyin sayğacına, kalkulyatoruna ürcah olanların bir qrupu isə keçmiş MTN əməkdaşlarıdır. Dahi ingilis yazıçısı, bir suyu bizim İsa Qəmbərə oxşayan Redyard Kiplinqin hələ 19-cu əsrdə yazdığı "Cəngəlliklər kitabı"nda bu proses tam dəqiqliyi ilə təsvir olunubdur. Oxuyanların yadına gələr, orda canavar sürüsünün başçısı Akela qocalanda ovda pəncəsi boşa gedirdi, bundan sonra sürü qərar verirdi ki, Akela ölməlidir. Onu yanılmıramsa Mauqli xilas edirdi - çoxdan oxumuşam.

İndi əlbəttə, MTN-in "qocalmış" canavarlarını xilas etmək üçün "Mauqli" tapmaq bir az çətindir. Gərək vaxtında meşədə bir uşaq tapıb himayəyə götürəydin. Bunlar isə heç gələcəklərini düşünməyiblər, eləcə "bu gün cəmdək varsa, həyat gözəldir!" fəlsəfəsi ilə yaşayıblar.

Həmin MTN qurdlarının ən böyüklərindən olmuş general Çovdarov məhkəmədə çox əsəbləşdi, dedi, məni danışdırmayın, yoxsa vətəndaş müharibəsi salaram. Guya bunda yüksək vəzifəli məmurlar haqda dəhşətli kompromatlar varmış.

Gülməli açıqlamadır. Adam vaxtında qəzet oxusa, radio-filan izləsə bilərdi ki, bizim ölkədə daha heç bir şey cəmiyyəti qarşıdurmaya gətirəcək qədər şok yaratmır. Prinsip etibarilə, az qala hamının oğurluğundan, quldurluğundan dastanlar yazılıb, kinolar çəkilib, hesablar ortaya qoyulub. Azərbaycan xalqının isə tükü tərpənməyib, əksinə, ürəyimizdə paxıllıq eləmişik: "Kaş imkan olaydı bu cinayətləri biz edəydik". Yenə bunlar yeyib doyublar və sairə - özünüz söhbəti məndən yaxşı bilirsiniz.

Məni bu tragikomik hədənin ikinci, necə deyərlər, nəticəvi hissəsi daha çox güldürdü. Vətəndaş müharibəsi təhlükəsi olan hissəni nəzərdə tuturam. Hətta adam az qalır türmədəki o biri bandit, insan qanı ilə mənzərə janrının görkəmli ustası polkovnik Hacı Məmmədova "Vətəndaş müharibəsi təhlükəsi" rəsmi sifariş versin. Salvador Dalidən nəyi əskikdir?

Yoldaşlar, məncə, bu ucuz şantajı yığışdırmaq lazımdır. 1993-cü ildən bəri çox adamdan vətəndaş müharibəsi hədələri eşidirik. Biri deyir, vətəndaş savaşını önlədim, o biri deyir, vətəndaş qanı tökmək istəmədim, yoxsa filankəsin ağzını cırardım. Hərçənd axırda sənədlər açıldı, məlum oldu qan tökmək istəyirmişlər, sadəcə, əmri yerinə yetirməyə - ağız cırmağa göndərməyə ləyaqətli kadr tapılmayıb və hamı qorxudan siçan deşiyinə giribmiş.

Sözüm odur çox da şey eləməyin.

# İsrail nəşrindən sensasion iddia - Vaşinqton de-marşa hazırlaşır?




# ABS "İslam NATO"su yaradır - Bakı üçün də çətin seçim

## Prezident Tramp xaricə ilk səfərini ortaq İslam ordusu təşəbbüskarı olan Səudiyyə Ərəbistanına edəcək; Azərbaycan və Türkiyə də sammitə dəvətlidir; ÜAK-ın ləğvindən sonra Bakı üçün unikal fürsət yaranıb - ABŞ-a reverans, yoxsa...

**ABŞ Prezidenti Donald Tramp xaricə ilk səfərini Səudiyyə Ərəbistanına edəcək. Burada o, Fars körfəzinin ərəb ölkələrinin başçıları ilə görüşəcək. Ər-Riyadda həmçinin Ərəb-İslam sammiti keçiriləcək. Görüşə Azərbaycan və Türkiyə də daxil olmaqla, 18 ölkə yüksək çinli rəsmisinin qatılacağı gözlənilir. İran sammitə dəvət olunmayıb.**

Lakin ən önəmlisi odur ki, səfər zamanı "İslam NATO-su"nun yaradılacağının elan edilməsi gözlənilir. Bu barədə informasiyanı İsrail kəşfiyyatına yaxınlığı ilə seçilən "Debka" informasiya portalı yayıb (axar.az). Sayt ər-Riyadın Trampın səfərinə xüsusi önəm verdiyini açıqlayıb.

"Hazırda İranın başı prezident seçkisinə qarışıb *(seçkilər mayın 19-na nəzərdə tutulub).* Tehran ər-Riyadda gerçəkləşəcək Amerika-İslam toplantısını narahatlıqla izləyir. Ona görə ki, qurulması planlaşdırılan İslam ordusunun məqsədi İŞİD-lə mübarizə olmayacaq. Bu ordu daha çox İran, İraq, Suriya və Livan Hizbullahına qarşı mübarizə aparacaq. "İslam NATO-su" ABŞ tərəfindən özəlliklə Yaxın Şərqdəki böhranlarla mücadilə üçün yaradılır. Bu ordu ABŞ və İsraildən də geniş dəstək alacaq", - deyə nəşr iddia edib.

***

Qeyd edək ki, Azərbaycan və Türkiyənin sammitdə hansı səviyyədə təmsil olunacağı haqda hələlik məlumat yoxdur. Ehtimal ki, rəsmi Bakı tədbirlə bağlı öz qərarını Türkiyə ilə razılaşdırılmış şəkildə verəcək. Bütün hallarda sammit çox önəmli olduğu və dünyanın 1 nömrəli fövqəldövlətinin moderatorluğu ilə keçiriləcəyi üçün Azərbaycanın da yüksək səviyyədə təmsilçiliyini ehtimal eləmək mümkündür.

"İslam NATO-su" ideyasına gəlincə, belə bir hərbi qurumun yaradılması sözsüz ki, ən çox İran və Rusiyanı narahat edəcək. İranla bağlı əsas motiv aydındır və ona yuxarıda əslində toxunuldu. O da bəllidir ki, prezident Donald Tramp sələfi Barak Obamadan fərqli olaraq, rəsmi Tehrana qarşı sərt kursun tərəfdarıdır və bunu gizlətmir də. O, Ağ Evə yiyələnər-yiyələnməz hətta İranla "altılığın" nüvə anlaşmasını ləğv etməyə kurs götürüb.

Rusiyaya gəlincə, "İslam NATO"su Kremlin maraqlarına da cavab vermir. Çünki: **1.** Moskvanın regiondakı manevr və hərbi müdaxilə imkanlarını daraldacaq, demək, Rusiyanın maraqlarına əngəl yaradacaq; **2.** Suriya və digər Yaxın Şərq məsələlərində Kremlin strateji tərəfdaşı olan İranın mövqeyinə zərbə vuracaq; **3.** Regional rəqib və supergüc kimi Türkiyənin bölgədə təsir imkanlarını artıracaq.

***

Yada salaq ki, hələ ötən ilin sonlarında rəsmi ər-Riyad *(Səudiyyə Ərəbistanı)* ortaq "İslam ordusu" yaradılması təklifi ilə çıxış eləmişdi. Analoji müraciət Bakıya da göndərilmişdi. O zaman Azərbaycan XİN başçısı Elmar Məmmədyarov məsələnin rəsmi Bakı tərəfindən öyrənildiyini söyləmişdi. Daha sonra bu məsələ gündəmdən, demək olar, çıxdı.

İndi isə ABŞ tərəfindən təzədən gündəliyə qaytarılır. Amerika isə təbii ki, İranla ədavətdə olan Səudiyyə Ərəbistanı deyil. Bu mənada Azərbaycanın məsələdə, bütövlükdə sammitdə hansı mövqe tutacağı çox maraqlıdır. Rəsmi Bakı faktiki şəkildə İran və Rusiya maraqlarına qarşı olan bir hərbi strukturda necə, əksər islam dövlətləri kimi yer alacaqmı?

Doğrudur, Azərbaycan "Bloklara qoşulmamaq" hərəkatının üzvüdür. Lakin bir şey də var ki, "İslam NATO"su bizim milli maraqlarımıza zidd də deyil. Ötə yandan, rəsmi Bakı yəqin ki, məsələdə qardaş Türkiyə ilə sinxron hərəkət edəcək. Əslində Türkiyə harada, Azərbaycan da orda olmalıdır. Demirikmi ki, "Bir millət - iki dövlət"?

Qardaş ölkə isə sözsüz ki, ideyaya sırf öz milli maraqları çərçivəsində yanaşacaq. Başqa sözlə, öncəliklə Türkiyənin əsas narahatlığı olan PKK-YPG problemi ilə bağlı ABŞ-la nə dərəcədə anlaşma əldə ediləcəyi mühüm rol oynayacaq. Türkiyəsiz "İslam NATO-su" isə amorf bir qurum olar ki, bunu da yəqin ki, hamıdan çox rəsmi Vaşinqton yaxşı başa duruş.

Ümumiyyətlə, bölgədəki son dramatik hadisələr də göstərdi ki, Ankaranın yaxından iştirakı və dəstəyi olmadan regionun heç bir ciddi problemi yoluna qoyula, bölgəyə daimi sülh gələ bilməz. Bundan ötrü isə Türkiyənin regiondakı əsas maraqları ciddiyə alınmalıdır.

***

Konkret olaraq, Rusiyanın "İslam NATO-su"ndan dolayı Azərbaycanla bağlı narahatlığına gəlincə isə, gerçək belədir ki, Azərbaycanın ciddi etirazlarına rəğmən, Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğvi bir daha göstərdi ki, Rusiya üçün bizim milli maraqlar sonuncu yerlərdən birini tutur və Moskva yeri gələndə bizi qulaqardı edir. O zaman niyə Azərbaycan da öz milli mənafeyinə uyğun hərəkət eləməsin - özü də Türkiyə ilə birgə və üstəlik, ÜAK qalmaqalından sonra?

**Bəlkə də əksinə, ÜAK olayına görə əsl məqamıdır ki, ABŞ-a, Qərbə güclü reverans eləməklə şimal qonşumuza sərt üzümüzü göstərək, ona ismarış göndərək. Təbii k, qardaş ölkə ilə sinxron siyasət aparmaqla, birgə hərəkət eləməklə...**

❑ Siyasət şöbəsi

**Bu yazını 25 il əvvəl, 1992-ci ilin mayında yazmışam. Laçındaydım, oradan çıxan son jurnalist olmuşam. Yanımda Məqsəd Nur vardı, Nəsiman Yaqublu bizdən bir gün öncə getmişdi; xaosun, panikanın, çığırtıların və mərmi yağışının içərisindən keçib, Bakıya doğru yol başlamışdıq. “Sağ qalsam, bunları yazacam”, deyə düşünürdüm. Nə fotoaparatım vardı, nə indiki kimi, mobil telefonum.**

**Rauf ARİFOĞLU**



# İsmayılı və Məqsəd Nuru niyə güllələyə bilmədim...

*Çiynimdə səfər çantası, onun da içində diktofon, qələm, vərəqlər; üstümdə də “TT” tapançası. Allaha və ona sığınmışdım; darağında cəmi 3 gülləsi vardı. Bizi Laçından çıxardan maşın dağ yoluna döndü, “Qayğı” qəsəbəsi atəş altındaydı, oradan keçəmmədik. Az getmişdik ki, maşın aşdı, sürücü oradaca buraxaraq, geri döndü; biz piyada və bələdçisiz qaldıq, dağlarla yürüyərək, Qubadlını istiqamət götürdük. Qəzetimizin ilk əməkdaşlarından olan İsmayıl Əliyev (Allah rəhmət etsin) sakitcə dedi: “Bəy, erməninin əlinə düşsək, məni vur, əsir düşməyim”... Yeriyə-yeriyə müzakirə etdik ki, əsir düşmək ərəfəsində özümüzü vurarkən, gülləni hansı nahiyəmizə vuraq ki, dərhal ölək. Başda dayandıq. “Amma dedim, İsmayıl, Məqsəd Nurun başına bir güllə bəs eləməz, ikisini vursam, mənə güllə qalmayacaq, bunu necə edək?” Bir xeyli də yarızarafat-yarıciddi, bunu müzakirə etdik. Saatlarca yol getdik, nəhayətdə, uzun bir marşrutla Qubadlıya, oradan da Bakıya gəldik. Burada da vəziyyət fəna idi. Mütəllibov qeyb etdiyi iqtidarına dönmüşdü, AXC-nin timsalında, millət onu yenidən devirməyə qalxmışdı. Cəbhədən cəbhəyə... Durumumuz belədi. Bir gün sonra Mütəllibovu devirdik, 3 gün sonra İsa Qəmbərin timsalında iqtidar olduq, lakin Laçını qurtara bilmədik, getdi. Əlimdən gələn o oldu ki, özümə verdiyim sözü tutum - nəticədə bax, Laçından bu yazı qaldı. Düz, 25 il sonra bu yazını kiril əlifbasından latına çevirib, internetin qucağına atıram. İmkanınız olsa, oxuyun:*

Laçının ermənilərə verilməsindən bir neçə gün əvvəl, may ayının 13-14-də orada olub, vəziyyətlə yaxından tanış olmaq bizə nəsib oldu.

Gözlədiyimizə rəğmən, Şuşanın təzədən geri alınması və müharibənin taleyində həlledici rol oynayan Laçının müdafiəsini möhkəmlətmək istiqamətində heç bir ciddi hərbi hazırlıq və yaxud buna cidd-cəhd hiss etmədik. Əvəzində ön cəbhəyə, döyüş xəttinə xas olmayan anarxiya ilə (hər sahədə ) rastlaşdıq. Rayon və ətraf kəndlərin əhalisi kütləvi şəkildə köçürülürdü. Yollar köç aparan maşınlarla və heyvan sürüləri ilə dolu idi. Köçürülmə yaxşı təşkil olunmadığı üçün tərkibi əsasən yerli əhalidən ibarət olan özünümüdafiə polkunda da müəyyən neqativ hallar *(əsgərlərin ailələrini və evlərini köçürmələri üçün müharibənin həlledici məqamında döyüş xəttindən getmələri, yaxud da əsgər ailələrinə xüsusi diqqət yetirilməsindən narazılıq, bütün bunların fonunda döyüşçülər arasında ruh düşkünlüyünün və inamsızlığın artması)* yaradırdı.



ЛАЧЫНЫ САХЛАМАГ ОЛАРДЫ

Лачынын ермәниләрә верилмәсиндән бир нечә күн ә-
вәл, мај ајынын 13-14-дә орада олуб, вәзијјәтлә јахындан
таныш олмаг бизә нәсиб олду.

Көзләдијимизә рәғмән, Шушанын тәзәдән кери алын-
масы вә мүһарибәнин талејиндә һәлледичи рол ојнајан
Лачынын мүдафиәсини мөһкәмләтмәк истигамәтиндә һеч
бир чидди һәрби һазырлыг вә јахуд буна чидди чәһд һисс
етмәдик. Әвәзиндә өн чәбһәјә, дөјүш хәттинә хас олмајан
анархија илә (һәр саһәдә) растлашдыг. Рајон вә әтраф
кәндләрин әһалиси күтләви шәкилдә көчүрүлүрдү. Јоллар
көч апаран машынларла вә һејван сүрүләри илә долу иди.
Көчүрүлмә јахшы тәшкил олунмадыгы үчүн тәркиби әса-
сән јерли әһалидән ибарәт олан өзүнүмүдафиә полкунда
да мүәјјән негатив һаллар (әскәрләрин аиләләрини в
евләрини көчүрмәләри үчүн мүһарибәнин һәлледичи м-
гамында дөјүш хәттиндән кетмәләри, јахуд да әскәр аи-
ләләринә хүсуси диггәт јетирилмәмәсиндән наразылы
бүтүн бунларын фонунда дөјүшчүләр арасында руһ дүш-
күнлүјүнүн вә инамсызлыгын артмасы) јарадырды.

Шушанын верилмәси, ондан бир нечә күн сонра сија
лидерләрдән биринин кедиб орада угурсуз ојун ојнамасы
даһа сонра вәзијјәти фәна көрүб кери гајытмасы, Шуша
көмәк ады илә кәлән дәстәләрин бир-бир гачмасы Лачы
мүдафиәчиләринә ағыр психоложи-мә'нәви зәрбә ву
мушду вә буну һисс етмәмәк, баша дүшмәмәк мүмк
дејилди.

“Вәтән инди Лачы...



...ндан 14 мај 1992-чи илдә, күнүн ики...
...ыхдыг. Губадлы-Лачын јолу атәш алт...
“Гајғы” гәсәбәсиндән сола дөндүк. Ва...
...ларын күч-бәла илә кедиб кәлдикләр...
...гәдәр пијада, бир гәдәр дә јүк машынл...
...саллана дөјүш кедән әразини тәрк...
...н галды, Шуша галды, Гарабағ гал...
...анәтә. Бакыдакы сон һадисәләрдән...
...а, Лачынын гурбан верилмәсини...

“Јени Мусават”, N-10 (28), 28 мај 19...

76

Şuşanın verilməsi, ondan bir neçə gün sonra siyasi liderlərdən birinin gedib orada uğursuz oyun oynaması, daha sonra vəziyyəti fəna görüb geri qayıtması, Şuşaya kömək adı ilə gələn dəstələrin bir-bir qaçması Laçın müdafiəçilərinə ağır psixoloji-mənəvi zərbə vurmuşdu və bunu hiss etməmək, başa düşməmək mümkün deyildi.

“Vətən indi Laçından başlanır. Azərbaycanın bütün qeyrətli oğullarının diqqəti buraya verilməlidir”, - deyə Teyyub Kərimoğlu adlı bir komandir istər hökumətin, istər hərbi nazirliyin və istərsə də bütünlüklə Azərbaycanın Laçına olan cinayətkar laqeydliyinə öz etirazını bildirdi. “Laçın da qurban getsə, Azərbaycan Fələstinin vəziyyətinə düşəcək”. Bu ifadə də həmin şəxsə məxsusdur...

Hər halda, mayın 13 və 14-də Laçın-Qubadlı yoluna da, Şuşa və Laçının arasındakı Turşsu postuna da, həmçinin digər strateji postlara da bizim hərbi qüvvələr tərəfindən tam nəzarət edilirdi. Həmin günlərdə kənardan qüvvə gətirərək müdafiəni bir az da bərkitmək, həm də psixoloji gərginliyi, ruh düşkünlüyünü, inamsızlığı aradan götürmək mümkün idi.

“Panika” təzə-təzə başlamışdı və bunun qarşısını almaq olardı. Sonradan ən qəhrəman və təcrübəli döyüşçünü belə orada saxlamaq mümkün olmayacaqdı. Çünki müharibənin, döyüşün öz qanunları var. Əsgərin döyüş psixologiyası darmadağın olundusa, o döyüşməyəcək. Artıq onu heç bir qüvvə mövqedə saxlaya bilməz.

Laçın qurbanlıq idi. Biz də bunu, orada olarkən bütün varlığımızla hiss edirdik. Döyüşçülər də bu qənaətdə idilər və bunu gizlədib eləmirdilər.

Arif Paşayev hamıdan fərqli olaraq, inamlı görünürdü və bütün döyüşçülərə də, görünür, ümid verib, hələlik orada qalmağa və gələn ağır döyüşün qəbuluna hazır olmağa bu inam kömək edirdi.

Təxribatçılar haqqında burada da danışırdılar. Müdafiə Nazirliyinin və MTN-in əks-kəşfiyyat idarələrinin olmaması, yaxud da olub, millətimizin xeyrinə işləməməsi açıq-aydın hiss olunurdu. Döyüş gedən bütün zonalarda təxribatçılar haqqında danışılır, fəqət indiyə qədər onların törətdikləri cinayətlər açılmamış qalır.

May ayının 14-də ermənilər saat 17.00 radələrindən Qubadlı-Laçın yolunu atəş altında saxladılar. Ətrafdakı bütün postlarda ağır döyüşlər gedirdi. Laçını sıxırdılar. Lakin yenə ən strateji mövqelərə nəzarət bizdə idi. Turşsuda xeyli zirehli texnika və canlı qüvvə var idi. Kəlbəcər-Laçın və Qubadlı-Laçın yolu ilə gediş-gəliş mümkün idi və axşamüstü Qubadlı-Laçın yolu tamamilə bizim qüvvələrin nəzarəti altında idi.

Həmin vaxt müdafiə nazirinin gəlib Qubadlıda oturması (heç Laçını demirik) və əməliyyat hazırlanmasına rəhbərlik etməsi hadisələrin sonrakı inkişafını dəyişdirə bilərdi.

Belə bir şəraitdə və yuxarıda deyilən şərtlər altında, fürsət ola-ola Laçın kimi strateji bir ərazini *(heç vətən deməyək)* müdafiə etməyə cəhd olunmaması onu göstərir ki, Azərbaycanın Müdafiə Nazirliyi yoxdur, sərhədləri taleyin ümidinə buraxıblar və yerli özünümüdafiə qüvvələrinin qeyrət və imkanları necədirsə, torpaqlarımızın taleyi də elədir.

Laçının qorunması onu təzədən geri almaqdan qat-qat asan idi. Və əgər müdafiəmizi üzərinə götürən nazirlik apardığımız müharibənin taleyini və demək olar ki, ən strateji mahiyyətini həll edən Laçını qoruya bilmirsə, yalnız oradan qaçan əsgərləri lentə aldırıb, televiziya ilə göstərtdirib vahimə yayırsa, öz-özünü buraxsın, millət də işini bilsin. Ya da indiki Müdafiə Nazirliyinin bazasında müstəqil teleşirkət açılsın *(buna maddi imkanları çatar)*, köməksiz, arxasız, ruhsuz qalıb düşmən qabağından qacan əsgərlərimizi lentə alsınlar, düşməni bizə güldürüb, millətin ürəyinə qan salsınlar.

Biz Laçından 14 may 1992-ci ildə, günün ikinci yarısında çıxdıq. Qubadlı-Laçın yolu atəş altinda olduğu üçün “Qayğı” qəsəbəsindən sola döndük. Və arxa yolla, maşınların güc-bəla ilə gedib gəldikləri dağ yolu ilə bir qədər piyada, bir qədər də yük maşınlarından sallana-sallana döyüş gedən ərazini tərk etdik. Arxada Laçın qaldı, Şuşa qaldı, Qarabağ qaldı. Gedirik üzü xəyanətə. Bakıdakı son hadisələrdən xəbərimiz olmasa da, Laçının qurban verilməsini təsadüf saymırdıq.




## Laçının işğalından 25 il ötür

### Arif Paşa: “Bütün torpaqlarımız istisnasız olaraq Azərbaycanı Rusiyanın təsir dairəsinə qaytarmaq istəyən, Müdafiə Nazirliyində yüksək mövqe tutan ruspərəst zabitlərin fəaliyyəti nəticəsində işğal edildi”

**Azərbaycanın dilbər guşələrindən olan Laçın rayonunun Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsindən 25 il ötür. Bu günlə bağlı mayın 17-də laçınlı məcburi köçkünlərin məskunlaşdığı Ağcabədi rayonu ərazisindəki Taxtakörpü qəsəbəsində ümumrayon anım mərasimi də keçirilib.**

Öncə məlumat üçün qeyd edək ki, 1992-ci il mayın 18-də erməni hərbi birləşmələri 1835 kvadratkilometr ərazisi olan Laçın rayonunu - bir şəhər, bir qəsəbə və 125 kəndi işğal edib, bu yerlərin 60 min nəfərə yaxın sakinini doğma torpağından didərgin salıblar. Müharibə zamanı 267 nəfər laçınlı şəhid olub, 66 nəfər girov götürülüb, 120 nəfər sağlamlığını itirib, yüzlərlə uşaq yetim qalıb. İşğal nəticəsində rayondakı 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat müəssisəsi və müxtəlif təyinatlı istehsal müəssisələri, 13 min 745 ev talan və məhv edilib, 250-dən çox tarixi abidə erməni vandalizminə məruz qalıb. İctimai və şəxsi təsərrüfatlardakı 25 min baş iribuynuzlu və 200 min başdan çox davar, minlərlə arı ailəsi, əhalinin bütün varidatı işğal zonasında qalaraq qarət edilib. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəyib.

**1992-ci ilin 30 aprelinədək Laçın alayının komandiri olmuş Arif Paşa hesab edir ki, həmin dövrdə ərazilərimizin işğalında birbaşa Rusiyanın rolu olub:** “Bütün torpaqlarımız istisnasız olaraq, Azərbaycanı Rusiyanın təsir dairəsinə qaytarmaq istəyən, Müdafiə Nazirliyində yüksək mövqe tutan ruspərəst zabitlərin fəaliyyəti nəticəsində işğal edildi. Bunu hamı görürdü və bilirdi. Ancaq işğal edilmiş hər bir ərazinin məhz döyüşən, vətənpərvər, müstəqillik yolunda savaşmış, üçrəngli bayrağımızı qaldırmış övladlarını zindanlara atdılar. Məni, indi də Rusiyada yaşayan və Rusiya xüsusi xidmət orqanlarına çalışan birisinin tərtib etdiyi xəyanətkar əmrə tabe olmamaqda ittiham edib, illərlə həbsdə saxladılar. Həmin əmr Laçın əhalisinin 30-40 min nəfərinin məhv olmasına hesablanmışdı”.

**Laçının işğalı barəsində “Yeni Müsavat”a danışan tarixçi Dilavər Əzimli də bir sıra məqamlara toxunub:**

“Laçından öncə Şuşanın işğalı baş verdi. Əslində bunun həm daxili, həm də xarici səbəbləri var. Bu iki səbəb isə bir-birini tamamladı. Hadisənin baş verməsində xarici səbəb, Rusiya faktoru idi. Daxili səbəb isə rusiyabaşlılar idilər. Həmin dövrdə Rusiya Azərbaycanda çox güclü mövqeyə malik idi. İndinin özündə də bu güc hiss olunur və Rusiya hələ də əlini tamamilə buradan çəkməyib. Artıq Rusiyaya bəlli idi ki, Azərbaycanda yeni qüvvələr hakimiyyətə gəlirlər. Əslində bunun təməli də məhz 1992-ci ilin əvvəlindən başlamışdı ki, o dövrdə Azərbaycanda müxalifət Rusiyanın dördüncü ordusunun ölkəyə çağırılması məsələsini ortaya atmışdı. Bütün bu proseslər isə Rusiya tərəfindən diqqətlə izlənilirdi. Nəhayət, Azərbaycanda Xocalı qətliamının törədilməsində Rusiyanın birbaşa iştirakı baş verdi. Bütün bu proseslər Azərbaycanda milli qüvvələrin hakimiyyətə gəlməsini zəruri etdi və başqa yol da yox idi. Artıq mayın 14-də Ayaz Mütəllimovun yenidən hakimiyyətə qayıdışı təmin olunmuşdu və bu qayıdış isə əks reaksiya vermiş, Mütəllimov Rusiyaya qaçmalı olmuşdu. Təbii ki, Şuşadan sonra Laçının da getməsi, o ərazilərdə Azərbaycan üçün ağır zərbə idi. Ona görə də yuxarıda qeyd etdim ki, bu məsələdə daxili və xarici səbəblər bir-birini tamamladı”.

**Tarixçi bildirib ki, illər keçsə də əslində Rusiyanın baxışı heç də dəyişməyib:**

“Son hadisələr də göstərir ki, biz Rusiya ilə hər hansı bir münasibətlərə can atsaq da, onlar bizə eyni reaksiyanı göstərmirlər. Rusiya yenə də imperiya ambisiyalarını davam etdirir və xüsusilə də Qafqazın ərazisinə aid olmasını arzulayır. Rusiyanın bizə qarşı münasibəti yalnız bu səpkidə davam edir. Azərbaycanın bütün maraqlarını Ermənistana qurban verirlər. Burada xristian amilləri və digər bu kimi məsələlər rol oynasa da, əsas imperiya ambisiyasıdır. Son zamanlar baş verən bütün siyasi hadisələr onu göstərir ki, Rusiya əvvəlki siyasətini yenə də davam etdirir və Azərbaycana qarşı daha da aqressivləşib”.

❑ **Əli RAİS**

**Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev və polkovnik Azər Mehdiyevin işi üzrə ittiham aktında bu qurumla əməkdaşlıq etmiş bir sıra şəxslərin adları açıqlanıb. 7 milyon manatdan artıq dövlət vəsaitinin mənimsənilməsi epizodunda bəzi şəxslərin agent olmaları haqda məlumatlar var və onların "kod adları", bəzilərinin isə adları mediaya da sızıb. Bu məsələ mətbuatda gündəmdir ki, müzakirə olunmaqdadır. Artıq Baş Prokurorluq bu məsələ ilə bağlı bəzi saytlara xəbərdarlıq elan edib, DTX isə məsələ ilə bağlı araşdırmaların başlanması haqda məlumat yayıb.**

# Agentlərin adlarının açıqlanmasına görə məsuliyyəti kim daşıyır?

## Ələsgər Məmmədli: "Burada dövlət sirri təşkil edən məlumat, informasiya yoxdur"



Media üzrə hüquqşünas Ələsgər Məmmədli "Yeni Müsavat" deyib ki, "Dövlət sirri haqqında" Qanunda göstərilən maddələrdə dövlət sirri təşkil edən informasiyaların qorunması vəzifəsi dövlət sirrini yaradan və ya mühafizə etməli olan şəxslərin üzərinə düşür. Bununla bağlı Cinayət Məcəlləsi ilə də məsuliyyət müəyyən olunub.

Dövlət sirri ilə əlaqəli 3 kateqoriya şəxs var:

- Dövlət sirrini yaradan və onu qorumaqla mükəlləf olan;
- Dövlət sirri ilə işləməyə buraxılan;
- Dövlət sirri məlum olan şəxs.

**Ə.Məmmədlli deyir ki, işinə görə dövlət sirri ilə tanış olan şəxs hazırda müzakirə olunan iş üzrə istintaq orqanları və ya prokurorluq strukturlarında bilavasitə istintaq və əməliyyat tədbirləri aparanlardır:** "Bu baxımdan, əgər onların araşdırdıqları məsələlərdə dövlət sirri vardısa, yayılmaması üçün tədbirlər görməli idilər. Yəni istintaq zamanı həmin sirlər daxil olan sənədlər tərəflərə verilirsə, onların üzərinə yaymamaq öhdəliyi qoyulmalı idi".

**Hüquqşünas deyir ki, yayılan informasiyaların dövlət sirri olduğuna inanmır:** ""Dövlət sirri haqqında" Qanunun 7-ci maddəsində deyilir ki, hüquq pozuntularına dair informasiyalar dövlət sirridirsə, məxfiləşdirilə bilməz. Mətbuatda müzakirəsi gedən, yayılan işdə də konkret hüquq pozuntularının ortaya çıxması faktları var. Bu da o deməkdir ki, həmin məlumatlar dövlət sirri kimi qorunmur. Yayılan məlumatlarda dövlət sirri olsaydı belə, media yaya bilərdi. Çünki həmin məlumatlar nəticə etibarı ilə mediaya gəlib çatıb. Digər tərəfdən, mətbuatda yayılan informasiyalarda hər hansı bir sənədə istinad yoxdur. Qeyri-müəyyən hərf birləşmələri var, bunlar da dövlət sirrini formalaşdıra bilməz. Söhbət "Dövlət sirri haqqında" Qanunun 5-ci maddəsində əməkdaşlıq edən şəxslərin kimliklərinin qorunmasından gedirsə, belə şəxslərin kimliklərini açıq şəkildə göstərən informasiya yoxdur. Burada müzakirələrdə adları çəkilən şəxslər var. Həmin şəxslər şərəf və ləyaqətin qorunması, böhtanla bağlı iddia qaldıra bilərlər. Amma bu da media nümayəndələrini hansısa orqana, prokurorluğa çağırıb "siz dövlət sirrini yayırsız" deməyə əsas vermir. Çünki ortada konkret fakt, sənəd yoxdur. Və ya kimsə əməkdaşlıq haqda olan, üzərində məxfi qrifi qoyulan sənədi görməyib".

**"Dövlət sirri təşkil etmiş, sonradan ittiham aktında yer alan məlumatları jurnalist yayırsa, onu dövlət sirrini yaymaqda ittiham etməyə əsas yaranırmı" sualına Ə.Məmmədli belə cavab verib:** "İttiham aktında yer alan ifadələr məhkəməyə qədər istintaq sirri hesab oluna bilər. Amma məhkəməyə təqdim olunursa, həmin zaman tərəflərin üzərinə yaymamaq öhdəliyi qoyulmursa, o zaman bununla bağlı medianın da hər hansı bir öhdəliyi yaranmır. Mümkündür ki, media nümayəndələri məhkəmə prosesinə buraxsınlar, onlara deyilsin ki, prosesin qapalı hissələrində səslənən, dövlət sirri təşkil edən məlumatları yaymayın. Bu halda media nümayəndələri prosesin qapalı hissəsindəki məlumatları yaysalar, məsuliyyət daşıyırlar".

**""Agent siyahısı" üzə çıxandan sonra aydın oldu ki, adları agent kimi mətbuatda hallanan şəxslər əslində MTN vəzifəliləri tərəfindən şəxsi məlumat mənbələri kimi şəxsi maraqlar üçün istifadə ediliblər. Sadəcə, elə şəxslərin adlarına dövlət büdcəsindən vəsaitlər yazılaraq mənimsənilib. Yəni bu şəxsləri əməkdaşlığa dövlət maraqları naminə deyil, şəxsi maraqlara görə cəlb ediblər. Bu halda dövlət sirrindən söhbət gedə bilərmi" sualına hüquqşünasın cavabını təqdim edirik:** ""Dövlət sirri haqqında" Qanunun 7-ci maddəsində dövlət sirri dövlətin bu və ya digər formada milli maraqlar baxımından, əməliyyat-kəşfiyyat tədbirləri baxımından qorunan mənafelərinə cavab verir. Qanunun 5-ci maddəsində qeyd edilir ki, milli təhlükəsizliyimizi təhdid edən hal yoxdursa, hansısa qrupun siyasi və iqtisadi məqsədlərini qorumaq, kimlərsə dövlət sirri kateqoriyasına girə biləcək çərçivəyə alınaraq agent və yaxud etibarlı şəxs kimi qanunsuz istifadə olunubsa, burada dövlət sirrindən söhbət gedə bilməz. Üstəlik, prokurorluq orqanı da bu halı müəyyən edibsə, həmin şəxslərin adlarına büdcədən pul silindiyi məlum olubsa, burada dövlət sirri təşkil edən məlumat, informasiya yoxdur. Bu artıq hüquq pozuntusudur və qanunda açıq-aydın göstərilir ki, dövlət sirri kimi qoruna bilməz".

Qeyd edək ki, yayılan məlumatlardan belə məlum olur ki, Elçin Quliyev, müavini İlqar Əliyev və digərlərinin təkcə 2011-2015-ci illərdə "Şimal küləyi" və "Qütb gecəsi" adlı əməliyyatlara xüsusi xərclər smetasından ayrılan 7 milyon manatdan artıq pulu guya səzügedən əməliyyatlarda informator rolunu oynayan müxtəlif "etibarlı şəxslərə", yəni agentlərə ödənilib. Lakin istintaq həmin vəsaitlərin təyinatı üzrə xərclənmədiyi qənaətinə gəlib. İş üzrə adları müəyyənləşdirilməyən agentlərin "kod adları" aşağıdakılardır:

**"Terminator"** - şəxsi işi Hilal Əsədovda olan bu agentə 287 min avro, 5400 ABŞ dolları və 12 min manat pul ödənildiyi yazılıb.

**"Samir"** - 82 min AZN, 53 min ABŞ dolları, 6 min avro. Bundan başqa 2013-cü ilin prezident seçkiləri ərəfəsində 4 ay ərzində hər ay 10 min AZN pul ödənilib.

**"Agent Dəniz"** - adına 35 min AZN, 13 600 Avro, 1200 dollar yazılıb.

**"Hətəm"** - adına 217 min AZN, 33 min Avro, 5400 ABŞ dolları yazılıb.

**"Atilla"** - adına 12 min AZN, 44 600 Avro, 1800 ABŞ dolları yazılıb.

**"Əlizadə"** - "Fəal istifadə olunduğuna görə" 15 min AZN mükafat alıb.

**"Qəhrəman"** - 31500 AZN pul alıb.

**İş üzrə ittiham aktında 4 şəxsin kimliyi öz əksini tapıb.**

**1. Etibarlı şəxs "BET"** - Behbudov Elçin Tofiq oğlu. 2013-cü ildə A.Məcidov tərəfindən əməkdaşlığa cəlb olunub. Hər ay MTN-dən 2 min AZN pul alıb, xarici səfərləri maliyyələşdirilib.

**2. Etibarlı şəxs "YFH"** - keçmiş maliyyə naziri Yusifov Fikrət Hüseyn oğlu. 2015-ci ildə A.Məcidov tərəfindən əməkdaşlığa cəlb olunub. Bu müddət ərzində ona 90.000 min AZN pul ödənilib.

**3. "Etibarlı şəxs "İƏ"** - Əliyev İlqar Talışxan oğlu. "Yeni Sabah" İctimai Birliyinin rəhbəri. 2011-2015-ci illərdə 132 min AZN, 6100 ABŞ dolları, 2400 avro alıb.

**4. Etibarlı şəxs "TT"** - Məmmədov Elnur Vaqif oğlu. *(Qeyd edək ki, bu şəxs 2004-cü ildən MTN-in Antiterror İdarəsinin rəis müavini İlqar Əliyev tərəfindən əməkdaşlığa cəlb olunub. 2005-ci ildə Ruslan Bəşirlinin həbs olunmasında fəal iştirak edib, öz qohumları ilə birgə məhkəmədə Bəşirlinin üzünə durub. Mənbə -avropa.info)*

2011-ci ildə AR CM-in 311.1-ci maddəsi ilə təqsirli bilinərək 4 il həbs cəzası alıb. Taleh Bağırovun "Müsəlman Birliyi Hərəkatı" adlı qurum yaratmaq istəyi barədə məlumat verdiyinə görə 10 min AZN birdəfəlik pul mükafatı alıb.

Bir daha qeyd edək ki, söhbət bu şəxslərin yalnız 2 əməliyyat - "Şimal küləyi" və "Qütb gecəsi" əməliyyatlarında iştirakından və aldıqları pullardan gedir.

❑ **E.MƏMMƏDƏLİYEV**

## Yaxınları Elçin Behbudovla bağlı xəbərlərə reaksiya verdi

### "Bu söhbət bağlanıb, Baş Prokurorluqdan da məlumat yaydılar ki, bu xəbərlər təsdiqlənmir"



**Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev, Antiterror Mərkəzinin əməkdaşı, polkovnik Azər Mehdiyev və digərlərinin məhkəmə prosesi davam edir. Prosesdə diqqət çəkən epizodlardan biri də "etibarlı şəxs" qismində bir qism şəxslərin adına dövlət büdcəsindən 7 milyon manatdan çox pul vəsaitinin ayrılaraq mənimsənilməsidir. İşdə pul ayrılmış şəxslərdən biri kimi İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin mərhum sədri Elçin Behbudovun adı keçir. Ona "BET" ləqəbi (Behbudov Elçin Tofiq oğlu) verilməklə 2013-cü ildən hər ay MTN-dən 2 min manat pul ayrıldığı, xarici səfərləri maliyyələşdirildiyi də qeyd olunur.**

E.Behbudovun ailə üzvləri məsələ ilə bağlı "Yeni Müsavat"a deyiblər ki, yazılanlardan xəbərdardırlar.

"Mətbuatda bu haqda yazılar var. Bizim nəsə deməyimiz artıqdır. Bu söhbət bağlanıb. Baş Prokurorluqdan da məlumat yaydılar ki, bu xəbərlər təsdiqlənmir. Qoy araşdırsınlar, heç yerə müraciət etmək fikrimiz yoxdur" - deyə mərhum hüquq müdafiəçisinin yaxınlarından biri söyləyib.

**E.Behbudovun uzun illər rəhbərlik etdiyi komitənin fəaliyyəti ilə bağlı suala isə belə cavab verib:** "İşgəncələrə Qarşı Azərbayan Komitəsinin fəaliyyəti hazırda dondurulub. Məsələyə Ədliyyə Nazirliyindən veriləcək cavabı gözləyirik".

Yada salaq ki, E.Behbudov hüquq müdafiəçisi kimi aktiv fəaliyyətə 2002-ci ildən başlamışdı. Təsisçilərindən olduğu İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri olaraq ən müxtəlif təşkilatlarda monitorinqlər aparıb. O, vaxtilə xüsusi xidmət orqanlarında işlədiyini heç zaman gizlətməyib. Özünün vaxtilə işgəncələrə məruz qalması haqda da suallara həmişə geniş, hərtərəfli cavab verib.

Məsələn, qəzetimizə vaxtilə bu fikirləri demişdi. Sitat: "Başıma gətirilənləri yada salmaq mənim üçün çox ağırdır. Heç bir günahı olmayan insanı həbs elə, işgəncələrə məruz qoy, şərəf və ləyaqətini alçalt - bunu Allah da götürməyəcək".

Qeyd edək ki, İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov 2015-ci il noyabr ayının 13-də vəfat edib. Bundan sonra komitənin fəaliyyəti dayandırılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Rusiya Qarabağ cəbhəsində gərginliyi körükləyir - yeni savaş riski

**Moskvanın təlimatlandırdığı İşğalçı Ermənistan Ağdam cəbhəsində növbəti təxribata əl atdı, cavabını aldı; politoloq: "Rusiya Ermənistanı qoyub Azərbaycanın haqlı mövqeyini heç vaxt dəstəkləməyəcək..."**

**Son zamanlar Azərbaycan və Rusiya arasında münasibətlərdə ortaya çıxan anlaşılmazlıqlar, Moskvadan ermənilərə dəstək verilməsi istiqamətində atılan addımlar işğalçı Ermənistanı və Qarabağ separatçılarını daha da fəallaşdırıb.**

İki gün əvvəl Qarabağ separatçılarının başçısı Bako Saakyanın Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttinə, Talış kəndi ərazisinə gəlməsi, hərbçilərlə görüşü də Azərbaycanı açıq şəkildə təxribata çəkmək niyyəti idi. Bundan bir gün qabaq düşmənin təxribatçı hərəkətləri ordumuzun sərrast atəşi ilə susdurulmuşdu. Ermənistan canlı qüvvə sarıdan itki vermədiyini iddia etsə də, hərbi texnikasının sıradan çıxdığını təsdiqləmişdi. ATƏT-in Minsk Qrupunun həmsədri olan Rusiya həmsədrlik prinsiplərinə sadiq qalmaq, işğalçını təxribatlardan qaçmağa çağırmaq əvəzinə, onun hərbi texnika sarıdan itki verməsinə dərhal reaksiya verdi. Belə ki, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi erməni jurnalistlərə Dağlıq Qarabağda ZRK OSA-nın vurulmasını şərh edib. Nazirlik bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında bir vasitəçi kimi atəşkəs rejiminin pozulmasını qınayır və iki ölkə arasında gərginliyin daha da güclənməsinin qarşısını almaq üçün bütün lazımi tədbirləri görəcək. Görünür, elə bu səbəbdəndir ki, Ermənistan növbəti təxribatlara əl atıb. Belə ki, mayın 16-da axşam saatlarından başlayaraq gecə ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə xəttinin Ağdam istiqamətində mövqelərimizi və müdafiəmizin dərinliyində yaşayış məntəqələrimizi müxtəlif çaplı minaatanlardan intensiv atəşə tutub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, eyni zamanda düşmən tərəfindən tətbiq edilən döyüş pilotsuz uçuş aparatlarının keyfiyyəti aşağı olduğundan onların istifadəsi nəticəsində heç bir zərər dəymәyib. "Dərhal görülmüş cavab tədbirləri nəticəsində düşmən susdurulub, Silahlı Qüvvələrimizin döyüş texnikasına ziyan dəyməyib və şəxsi heyət arasında itki yoxdur. Atılan mərmilər əsasən boş əkin sahələri və yaşayış məntəqələrinə yaxın ərazilərə düşüb. Müdafiə Nazirliyi bildirir ki, əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarəti altındadır", - deyə məlumatda vurğulanır.

Son zamanlar davamlı şəkildə gah Ermənistandakı birgə hərbi birləşmələrin Qarabağdakı hərbi əməliyyatlara müdaxilə edəcəyi ilə hədələyən, ya da həyasızcasına Azərbaycanı iki dövlət sərhədində "təxribatlar törətməkdə" günahlandıran işğalçı bununla KTMT-nin proseslərə müdaxiləsi üçün imkan yaratmağa çalışır. Ancaq Moskvanın Qarabağ separatçılarına Rusiya ərazisində müxtəlif səviyyələrdə meydan verməsi, üstəlik, işğalçı Ermənistana məxsus hərbi texnikanın vurulmasından narahatlığını (!) dərhal izhar etməsi Azərbaycanı alternativlər axtarmağa, həmsədrlik institutunun fəaliyyətindən imtinaya vadar edir.

Vəziyyətin kritik olduğunu ABŞ Milli Kəşfiyyat Agentliyi də öz hesabatında bildirmişdi. Sənəddə deyilirdi ki, bu il ərzində Qarabağda geniş hərbi toqquşmalar baş verə bilər. Məhz bundan sonra həmsədrlər bölgəyə səfər edəcəklərini açıqladılar. ATƏT-in fəaliyyətdə olan sədri, Avstriyanın xarici işlər naziri Sebastian Kurzun Cənubi Qafqaz regionuna səfəri də nəzərdə tutulub.

Bu barədə APA-ya Avstriya sədrliyinin mətbuat ofisindən məlumat verilib. Bildirilir ki, səfərin dəqiq tarixi hələlik müəyyənləşməyib. Qeyd edək ki, ATƏT-ə sədrlik edən ölkələr ənənəvi olaraq hər il Dağlıq Qarabağ münaqişəsinin tərəfləri olan Azərbaycan və Ermənistana səfər edirlər. 2016-cı ildə ATƏT-ə sədrlik edən Almaniya xarici işlər naziri Frank Volter Ştaynmayer iyunun 30-da, 2015-ci ildən sədrlik edən Serbiyanın xarici işlər naziri İvitsa Daçiç isə iyunun 1-də Azərbaycana səfər edib.

Ancaq bu səfərlərin prosesdə önəmli rol oynayacağına ümidlər qalmayıb. Hətta Rusiyanın ev sahibliyi ilə keçirilən son görüş də nəticəsiz başa çatdı və hətta bunun ardınca işğalçı daha da ağzınlaşdı.



**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında Rusiya XİN-in son reaksiyasını təəccüblü saymadığını vurğuladı:** "Rusiyanın belə reaksiyası guya ki, ATƏT-in Minsk Qrupunun üzvü kimi təmas xəttində gərginliyin artması və hər hansı lokal döyüşlərə gətirib çıxara bilməsinə münasibət kimi qiymətləndirilə bilər. Yəni bu rəsmi tərəfdir. Qeyri-rəsmi ondan ibarətdir ki, məhz vurulan həmin texnika yeni - OSA zenit raket kompleksi Rusiyanın hərbi hava qüvvələrində ən çox işlənən komplekslərdən biridir və belə bir kompleksin Dağlıq Qarabağ ərazisinə gətirilməsi də Azərbaycanın hava məkanına birbaşa müdaxilə deməkdir. Daha doğrusu, hava məkanında uçan vasitələrimizə qarşı və hətta terror aktına qədər istifadə edilə bilər. Təbii ki, Azərbaycan tərəfi öz hava məkanlarının təhlükəsizliyinə olan təhdidin qarşısını almaq üçün onu məhv etməli idi və belə də etdi".

**A.Nağıyev bir məqama xüsusi diqqət yetirməyi vacib saydı:** "Bütün bu proseslər Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etdiyi vaxt daima baş verir. İndi də İslam Həmrəyliyi oyunlarının keçirildiyi bir vaxt təsadüf seçilməyib. Məlumdur ki, bu oyunlarda Rusiya iştirak etmir, etsəydi ermənilər, ümumiyyətlə, belə təxribatlara əl atmaqdan çəkinərdilər. Eyni zamanda təmas xəttinin müxtəlif istiqamətlərində ermənilərin təxribatı vurulan texnikaya görə cavab tədbiri görmək istəyi ilə bağlıdır. Bütün bunlar da öz havadarları ilə birlikdə Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi və status-kvonun saxlanması üçün atılan addımlardır".

**Ekspertin sözlərinə görə, çox təəssüf ki, ATƏT-in Minsk Qrupunda təmsil olunan dövlətlər, o cümlədən Rusiya mühüm addımlar atmır və atmaq istəmir:** "Məhz buna görə də Azərbaycan öz ərazi bütövlüyünün bərpası və düşməndən təmizlənməsi üçün bütün potensialından, eyni zamanda hərbi metoddan da istifadə etməli, edir və edəcəkdir".

**"Yay ayları yaxınlaşdıqca cəbhə bölgəsində gərginliyin artacağını ehtimal edirəm. Həmsədr dövlətlərin əlindən bir iş gəlmir. Əslində elə onların özləri Azərbaycanla Ermənistanı müharibəyə sürükləyirlər". Bu fikirlər isə politoloq Elxan Şahinoğluna məxsusdur. Ekspert "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, müharibə istəməyən dövlətlər bunun qarşısını almaq üçün həll mexanizmlərini işə salmırlar, Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasının aktuallığını anlamaq istəmirlər:** "Belə olan halda kimsə Azərbaycandan atəşkəsə riayət edəcəyini gözləməsin. Təsadüfi deyil, bir neçə gün əvvəl Azərbaycan ordusu işğal altındakı torpaqlarda separatçıların zenit-raket kompleksini məhv etdi. Bu hadisə Ermənistanda ciddi müzakirələrə səbəb olub. Deyirlər ki, "zenit-raket kompleksinin məhv olunmasının əvəzini çıxmalıyıq, yoxsa Azərbaycan daha çox üstümüzə gələcək". Göstərdikləri misal da maraqlıdır: "Ağdam səmasında helikopterimizi vurdular, 3 hərbçimizi itirdik, əvəzini çıxmadıq. Bu dəfə də əvəzini çıxmasaq, Azərbaycan ordusu itki verməsə, qarşı tərəfdə ruh yüksəkliyi artacaq"".

**E.Şahinoğlu şimal qonşumuzun dolayısı ilə işğalçıya verdiyi dəstəyə də diqqət çəkdi:** "Ən maraqlısı odur ki, separatçıların "daha çox azərbaycanlı hərbçi öldürməliyik" fikirlərini Rusiyadakı bəzi saytlar da tirajlayır. Biz vurmaqda davam edəcəyik, əvəzini çıxmağı bacarsalar da, bacarmasalar da yenə vuracağıq, başqa alternativimiz yoxdur. Torpaqlarımızı işğal etməklə həyatımızı zəhərə çevirdilər, deməк, onların həyatı bizimkindən də betər olmalıdır. Elə bilirdilər Dağlıq Qarabağı və ətraf rayonları işğal etməklə məsələ bitdi, üstəgəl, Bişkəkdə atəşkəs sazişi onların rahat həyatı üçün təminatdır. İlk illərdə zəif idik, dözürdük, indi Allaha şükür, ordu gücləndirilib, kifayət qədər hərbi sursatımız da var. Ona görə də işğalçıya və işğaldan bəhrələnən əhaliyə sakitlik vəd edə bilmərik".

**Politoloq Ermənistanla qarşıdurmada Rusiya faktorunun arxa plana atılmasını doğru saymayanlarla müəyyən qədər razılaşır:** "Bəli, bu faktor həmişə var. Ancaq biz bu faktorla daima hesablaşmalı deyilik, elə etməliyik ki, Rusiya bizim maraqlarla hesablaşmaq məcburiyyətində qalsın. Çətindir, ancaq mümkündür. Rusiya faktorunu özümüz üçün əsas götürməməliyik. Onsuz da Rusiya Ermənistanı qoyub Azərbaycanın haqlı mövqeyini heç vaxt dəstəkləməyəcək. Rəsmilərimiz də son zamanlar açıq etiraf edirlər ki, "Rusiya nə istədi, biz həmin istəkləri yerinə yetirmədik?" Bu istəklərin yerinə yetirilməsinin əvəzində nə qazandıq? Heç nə, yenə erməni separatçılarını dəstəklədilər. Demokratiyada çarə tükənmədiyi kimi, xarici siyasət və təhlükəsizlikdə də çarə tükənməz, alternativlər həmişə var".

Bir sıra müşahidəçilər hesab edir ki, Rusiya-Ermənistan hərbi müttəfiqliyinin qarşılığında Azərbaycanın Türkiyə ilə hansısa formada əməkdaşlığı, birgə hərbi birləşmələr yaratması əsas çıxış yollarından biridir. Görünən budur ki, Azərbaycanın neytral mövqeyi, Qoşulmayanlar Təşkilatının üzvü kimi yola davam etməsi onun əleyhinə işləyən qüvvələrin sui-istifadəsinə yol açdı. Tərtər cəbhəsi istiqamətində düşmənin hazırladığı təxribat planının qarşısı vaxtında alınmasa, kim bilir, necə böyük fəlakətlər baş verə bilərdi. Bu mənada Azərbaycan hər an baş verə biləcək növbəti döyüşlərə özünün yaxın müttəfiqləri ilə bərabər hazır olmalıdır ki, torpaqlarını son qarışına qədər azad etməklə bağlı planını uğurla başa çatdırsın. Çünki bütün dünya bilir ki, Azərbaycanın qarşısında dayanan Ermənistan ordusu deyil...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

**Eks-spiker Rəsul Quliyev bildirib ki, Azərbaycan Rusiya, İran və Türkiyə arasında 3 yerə bölünə bilər. Bəzi jurnalistlər və siyasi ekspertlər isə bildirirlər ki, bu təhlükəli fikrə etiraz etmək lazımdır. Çünki bu cür fikirlər xalqda pessimizm aşılayır.**

# Rəsul Quliyev qorxunc iddia ilə gündəmə gəldi...

## Eks-spikerin fikirləri etiraz doğurdu; "Okeanın o tayından baxanda necə görünməsindən asılı olmayaraq..."



**Məsələn, jurnalist Taleh Şahsuvarlı bildirib ki, bu təhlükəli fikrə etiraz etmək lazımdır. Siyasətçinin işi xalqın müstəqilliyə və dövlətə inamının itməsi üçün çalışmaq deyil, hətta ən ağır anlarda belə xalqda müstəqilliyə və dövlətə inam aşılamaqdır:** "Hakimiyyət uğrunda mübarizə başa düşüləndir. Amma bu mübarizəni belə primitiv üsullarla aparmazlar. Azərbaycan xalqı daim öz müstəqilliyi uğrunda mübarizə aparıb və dövlətləşmə istiqamətində çox uğurlu yol qət edib. Bizim ADR-miz, Elçibəyin öndərliyində demokratik milli azadlıq hərəkatımız, Heydər Əliyevin canı bahasına qoruduğu və təşkilatlandırdığı dövlətimiz, İlham Əliyev dövründə böyük iqtisadi, siyasi, mədəni uğurlarımız var. Heç bir qüvvə və faktor Azərbaycanın müstəqilliyindən bir hərf də qopara bilməz. Rəsul Quliyev, sadəcə, saçmalayıb, yaxud ABŞ-dakı dostlarının kluar xəyallarını bizə sırıyır. Çox təəssüf!"

**Gənc Demokratlar İnstitutunun rəhbəri Yeganə Hacıyeva isə hesab edir ki, ümumiyyətlə, bu cür fikri ifadə etmək nəinki bir siyasətçi, hətta sıradan, proseslərdən xəbərsiz və təcrübəsiz bir şəxs tərəfindən səslənirsə, qəbuledilməzdir:** "Öncə onu qeyd edək ki, Azərbaycan bir dövlət kimi BMT tərəfindən tanınmış, müstəqil, beynəlxalq münasibətlərdə, qlobal siyasətdə güvənli, regiondakı tərəfdaş, beynəlxalq təşkilatların üzvü, Cənubi Qafqazın nüfuzlu iqtisadi, siyasi mərkəzi olan dövlətdir. Azərbaycan təhlükəsizliyini müdafiə edən müstəqil, müasir texniki təchizatlı ordusu olan, regionda qlobal güclərlə münasibətdə balanslı siyasət həyata keçirən bir dövlətdir. Okeanın o tərəfindən necə görsənməsindən asılı olmayaraq, ölkəmizin ayrı-ayrılıqda bu dövlətlərlə mövcud münasibətlərinə bir nəzər salaq: Rusiya ilə münasibətdə istər regionda, qlobal yanaşmada bu ölkənin maraqlarına zidd olan hər hansı bir addımın atılmasının şahidi deyilik, əla iqtisadi münasibətlər mövcuddur. Eyni yanaşmanı İranla münasibətdə də qismən söyləyə bilərik. Türkiyə ilə yanaşmada isə ümumiyyətlə, iki qardaş dövlət, tam uzlaşan regional və qlobal siyasət və s. kimi reallıq mövcuddur. İndi sual yaranır ki, o hansı proseslərdir ki, onun nəticəsi olaraq "Azərbaycan Rusiya, İran və Türkiyə arasında 3 yerə bölünə bilər" kimi absurd fikir ortaya atılır? Bu cür fikirlərin neqativ təsiri olur".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, hər kəsin istənilən yanaşmasına hörmətlə yanaşmaq lazımdır. Hər kəsin fikirlərini sərbəst şəkildə bildirməsinə də həmçinin:** "Rəsul Quliyev nəyə əsaslanıb o cür fikir söyləyib deyə bilmərəm. Amma mən düşünmürəm ki, Azərbaycanın bu gündən sonra hansısa hissələrə bölünmə təhlükəsi var. Çünki 21-ci əsrdə hansısa dövlətin sərhədlərinin dəyişdirilməsi o qədər də sadə məsələ deyil. Dünyada artıq bəlli dəngələr formalaşıb və bu dəngələrin hər hansı birinin pozulması sadə məsələ deyil. Əgər bu gün ərazisində saysız dövlətlərin və silahlı terror qruplarının olduğu Suriya, İraq, Əfqanıstan kimi dövlətlərin sərhədləri dəyişməyibsə və bölünməyiblərsə, Azərbaycanda belə bir təhlükənin varlığı, ümumiyyətlə, müzakirə mövzusu ola bilməz.

Hansısa siyasətçinin səsləndirdiyi fikirlər ancaq onun şəxsi personasına və təmsil etdiyi siyasi quruluşa münasibət formalaşdıra bilər. Yəni Rəsul bəyin bu və ya digər fikirləri inanmıram ki, cəmiyyətdə kütləvi pessimizm yaratsın. Qeyd etdiyim kimi, hər bir fikir onun sahibi barədə müsbət və ya mənfi rəy yaradır. Əminəm ki, Rəsul Quliyev də bu fikirləri səsləndirən zaman bu faktoru unutmuş deyildi və bunun müsbət ya mənfi nəticələrini də qəbul etməyə hazırdır".

**Bəzi ekspertlər isə hesab edir ki, çoxdandır mediada görünməyən, maraq doğurmayan eks-spiker belə bir absurd fikir ortaya atmaqla, sadəcə, gündəmə gəlmək istəyib...**

❑ Etibar SEYİDAĞA

# Avropa Şurası Ermənistandan da soyqırım etirafı tələb edəcəkmi...

**Avropa Şurası (AŞ) Serbiyanı törətdiyi Srebrenitsa qətliamının soyqırım olduğunu etiraf etməyə çağırıb. APA-nın "DW"yə istinadən verdiyi məlumata görə, AŞ rəsmi Belqradın 1995-ci il hadisələri ilə bağlı üzr istəməsini yetərli hesab etmir.**

AŞ-nin İrqçilik və Dözümsüzlüklə Mübarizə Komissiyasının bəyanatında bildirilir ki, beynəlxalq məhkəmələrin Srebrenitsa hadisələrini soyqırım kimi qiymətləndirməsinə rəğmən Serbiya parlamenti və prezident indiyədək 1995-ci ildə baş verənləri rəsmi olaraq soyqırım kimi tanımayıb.

Avropa Şurasının bu bəyanatı ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımını yenidən gündəmə gətirib. Ekspertlər AŞ-nin bu bəyanatından istifadə edərək, Azərbaycan tərəfin vaxtı uzatmadan hərəkətə keçməli olduğunu, AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin bu məsələni qaldırmasının vacibliyini vurğulayırlar. Bu yolla AŞ-nin təcavüzkar Ermənistan barəsində də bu tipli bəyanat səsləndirə biləcəyi qeyd olunur.



**Fazil Mustafa:** "Belə bir müraciət olunacaq"



**Razi Nurullayev:** "Xocalı soyqırımı da Srebrenista hadisələrinə tam oxşar hadisədir"

**Böyük Quruluş Partiyasının sədri, AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü Fazil Mustafa bu istiqamətdə müəyyən hazırlıqların görüləcəyini qeyd etdi:** "Nümayəndə heyəti yəqin ki, bu istiqamətdə müəyyən işlər görəcək və məsələni gündəmə gətirəcək. Çünki bu bir fürsətdir, əgər ikili standart yoxdursa, o zaman qaydalara uyğun şəkildə bu müraciətin edilməsi vacibdir. Çox güman ki, belə bir müraciət olunacaq. Bu məsələ ilk növbədə Avropa Şurasında qaldırılmalıdır. Belə bir qərar qəbul olunarsa, Azərbaycan hökuməti bunu əsas götürərək sonra digər dövlətlərdən tələb etməlidir ki, bu məsələdə həmrəylik göstərilsin, Serbiyadan edilən tələb burada da edilsin. Bunun hüquqi tərəfi yoxdur, olacaqsa, siyasi qərar olacaq. Çünki soyqırımla bağlı hüquqi qərar deyilən bir anlayış yoxdur".

**Yeni AXCP-nin sədri, beynəlxalq məsələlər üzrə ekspert Razi Nurullayev Azərbaycan hakimiyyətinin Xocalı soyqırımının tanıdılması ilə bağlı müəyyən işlər gördüyünü bildirdi:** "Haqsızlıq etmək olmaz, hakimiyyət Xocalı soyqırımı ilə bağlı müəyyən işlər aparır. Amma Avropa Şurasında bu soyqırımın tanıdılması ilə bağlı işlər görülsə də, nəticəsi hələ ki zəifdir. Çünki burada iqtidarın başı siyasi işlərə daha çox qarışır. Çünki Avropa Şurasının Azərbaycandan demokratiya, insan haqları ilə bağlı bu və ya digər şəkildə tələbləri olur. İqtidar isə bunun qarşısını almaq üçün müəyyən lobbi tədbirləri həyata keçirir. Nəticədə ölkə üçün önəmli məsələlər arxa planda qalır. Avropa Şurasında da Xocalı soyqırımı, Azərbaycanla bağlı məsələlər arxa plana keçir. Əgər Avropa Şurası Srebrenitsa soyqırımı ilə bağlı Serbiya hökumətinə təzyiqlər edirsə, təbii ki, Azərbaycan tərəfi də AŞ PA-dakı nümayəndələri vasitəsilə bu məsələnin onların gündəminə salınmasına nail ola bilər. Xocalı soyqırımı da Srebrenista hadisələrinə tam oxşar hadisədir. Bu istiqamətdə nələrsə edə bilərik. Bəzən bizə elə gəlir ki, Avropa dövlətləri daha çox ermənipərəstdirlər. Amma əslində belə deyil. Bəzən Avropa parlamentariləri həqiqətin yanında dayanmağı bacarırlar. Bu baxımdan, Azərbaycan hökuməti güclü işləyərsə, Avropa siyasətçiləri ölkəmizin yanında dayana bilər. Onu da qeyd edək ki, Azərbaycanla Ermənistan arasında hazırda sülh danışıqları davam edir. Amma onu da qeyd edim ki, danışıqlar prosesini pozmamaq, zərər verməmək, tərəflərin bir masa ətrafında oturmalarına nail olmaq üçün bu cür məsələləri sonrakı mərhələlərə saxlaya bilərlər. İndiki vaxtda bu məsələni gündəmə salmama ehtimalları da var. Bununla bağlı onların öz düşüncələri da ola bilər. Danışıqlar prosesinin davam etməsi bu məsələyə maneçilik yarada bilər".

**R.Nurullayev beynəlxalq situasiyanın bu istiqamətdə Azərbaycanın xeyrinə olduğunu da qeyd etdi:** "Dağlıq Qarabağ məsələsi ilə bağlı hadisələr Ermənistanın xeyrinə işləmir. Artıq beynəlxalq konfranslar, tədbirlərdə Ermənistan öz mövqeyini müdafiə etmək üçün çox əziyyətlər çəkir. Amma öncəliklə bu konfranslarda iştirak edən bir şəxs kimi deyə bilərəm ki, Azərbaycan torpaqlarının işğal edilməsi faktını dünyaya sübut etmək üçün çox əziyyətlər çəkirdi. Lakin hər zaman Azərbaycan nümayəndə heyətinin çabaları qulaqardına vurulurdu. Ermənistan isə hər zaman bu məsələləri bayram edirdi. Amma hazırda eyni vəziyyətlə onlar üzləşib. İndi Azərbaycan tərəfi ermənilərin Azərbaycan torpaqlarını işğal etdiyini, bir milyondan çox vətəndaşımızı öz doğma yurdlarından didərgin saldığını deməyə gərək qalmır. Çünki artıq dünya dövlətləri, beynəlxalq konfransların iştirakçıları bununla bağlı məlumatlıdırlar. Ermənistan tərəfi, əksinə, Azərbaycan ərazilərini işğal etmədiklərini, qətliamlar törətmədiklərini, işğalçı olmadıqlarını sübut etmək üçün dəridən-qabıqdan çıxırlar. Lakin hər zaman da iflasa uğrayırlar. Azərbaycan bütün istiqamətlərdə öndədir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

**Azərbaycan məktəblərində təhsil sistemi 2009-cu ildən etibarən kurikulum sisteminə keçib. Kurikulum - təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə birləşdirən konseptual sənəddir. Bu sistemin əsasını tərtib, tətbiq, qiymətləndirmə, təhlil təşkil edir. Kurikulum sistemində qiymətləndirmə kiçik və böyük summativ qiymətləndirmədən ibarətdir.**

# 8 ildir tətbiq edilən kurikulum sistemi təhsilə nə verdi?

Bu sistemə görə, müəllimlər şagirdlərin daha effektiv işləməsi üçün köməkçi vasitələrdən istifadə edir. Bu işə vərəqlərin hazırlanması, lüğətlərin və testlərin surətinin çıxarılması, şagirdlərə paylanılması daxildir. Azərbaycanda istifadə olunan kurikulum növü "fənlərə əsaslanan kurikulum"dur. Bir çoxları bu sistemin özünü doğrultduğu düşüncəsində olsa da, bunun əksini düşünənlər də az deyil. Təhsil ekspertləri Avropadan təhsilə dair başqa sistemləri götürməklə təhsilə daha çox fayda verə bilərdik qənaətindədirlər. Hətta bugünlərdə Azərbaycanda gözlənilən nəticəni vermədiyi üçün kurikulumla tədrisin ləğv ediləcəyi ilə bağlı məlumatlar yayılmışdı. İddialara görə, kurikulumla tədrisin ləğvinə əsas səbəblərdən biri şagirdlərin müxtəlif siniflərdə monitorinq imtahan nəticələrinin qənaətbəxş olmamasıdır. Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri Aydın Əhmədov azvision.az-a açıqlamasında xəbərin yalan olduğunu bildirib.

Maraqlıdır, təhsil ekspertləri bu barədə nə düşünür, 8 ildə kurikulum sistemi təhsilə gözlənilən nəticəni verdimi?



**Əjdər Ağayev:** "Kurikulum deyilən sənədlər toplusunun təsdiqinin lazımı səviyyədə olmadığının tərəfdarıyam"



**Kamran Əsədov:** "Kurikulumun standartlarına məcburi dəyişikliklər etmək lazımdır"

**Təhsil Şurasının sədri Əjdər Ağayev kurikulum deyilən sənədlər toplusunun təsdiqinin lazımi səviyyədə olmadığını bildirdi:** "Kurikulum sistemi anlayışının özü pedoqoji baxımdan qeyri-dəqiqdir. Kurikulum sənədlər toplusunun adıdır. Mən hələ kurikulum anlayışı Azərbaycana gələndə bu anlayışın Azərbaycan lüğətinə məxsus olmadığını bildirmiş və bizim özümüzdə olan anlayışı, yəni təhsil proqramları anlayışının işlədilməsini təklif etmişdim. Lakin nazirlikdən bildirdilər ki, dünya bankı bunu layihəsində bizə verir və milyonlarla da kredit verir. Əgər kurikulum sözünü işlətməsək elə bilərlər ki, biz onların layihəsini tətbiq etmədik. Bu, adi bir münasibətdən yaranan anlayış oldu. Əlbəttə, müasir təlim metodları elmin inkişafı ilə bağlıdır və bu özünü doğruldur. Amma standartları əsas götürüb sistemli proqramın ləğv olunması və dərsliklərin o standartlara cavab verməsi üçün sistemsiz hazırlanması mənfi hal doğurdu. Yəni öyrənmədə sistemliliyi, varisliyi, geniş dünya görüşünə malik olma imkanlarını sıradan çıxartdı. Buna görə də çoxları tərəfindən bu gün də qəbul olunmur. Digər tərəfdən, hazırlanan dərsliklər əvvəlki sistemliliyi pozduğuna görə müəllimlər və valideynlər tərəfindən də qavranılmadı. Şagirdlər də çox böyük əziyyət çəkirlər. Kurikulumla bağlı hazırlanan dərsliklərin müəyyən bir qismini pedaqoji prosesdə iştirak etməyən adamlar hazırladılar. Məsələn, ibtidai sinfin riyaziyyat dərsliyini hazırlayan əsas müəllif mühəndisdir. O, nə dərs deməyib, nə də ki pedaqogikadan xəbəri yoxdur. Yəni pedaqoji tələblər nəzərə alınmadığına görə, o tələblərdən danışıram ki, o yalnız Azərbaycan yox, dünya təcrübəsində yer tutur. Kurikulumla hazırlanan dərsliklər, kurikulum tələbləri baxımından keçirilən tədris prosesində müəyyən fəallıq və düşüncə axtarışları üçün yaradıcılıq tətbiq olunsa da, onlar, sadəcə söz danışan insanlara çevriliblər. Əslində isə təfəkkür formalaşdırılmalıdır. 90-cı illərdə testlərə ehtiyac vardı. Amma 1996-cı ildən sonra testə ehtiyac yox idi".

**Ekspert bu ümumtəhsil məktəblərinin əksəriyyətində tədrisin lazımı səviyyədə qurulmadığını, müəllimlərin o dərsliklərlə, proqramlarla bağlı çətinlik çəkdiyini dedi:** "Buna görə də uşaqlarla repetitorlar məşğul olur. O da ali məktəbə hazırlaşan şəxsin qrupuna lazım olan fənni öyrədir. Bunun fiziki inkişafı, təfəkkürün inkişafı, vətəndaş mövqeyi hazırlığı var ki, bunlar məktəbin bütün fənlərinin tədrisində həyata keçirilməlidir. Ancaq kurikulumun çətinliyi buna imkan vermir. Hazırkı vəziyyətdə kurikulum deyilən sənədlər toplusunun təsdiqinin lazımi səviyyədə olmadığının tərəfdarıyam".

**Təhsil eksperti Kamran Əsədov kurikulumun qeyri-adi bir təhsil alma forması olmadığını dedi:** "Təəssüf ki, bizim təhsildən nə istədiyimiz məlum deyil. Təhsildə çatmaq istədiyimiz hədəflər yoxdur. Hələ də 70 faiz müəllim nə qədər yeni standartlar tətbiq olunsa da, ya sovetlər dönəmindən qalan bilik və bacarıqları ilə, ya da yeni standartları özü başa düşdüyü kimi tətbiq edir.

Ona görə də kurikulumu ləğv edib Rozenberq metodunu da gətirsək, Finlandiya, Sinqapur modelini də tətbiq etsək, istənilən nəticə əldə etmək mümkün olmayacaq. Çünki hədəflər müəyyən deyil. Kurikulum qeyri-adi bir təhsil alma forması deyil. Bu, təlim standartları və metodlarını özündə əks etdirən orta təhsil sənədidir. Nəzərə alsaq ki, bu kurikulum standartları 2003-2008-ci illərdə hazırlanıb və keçən müddət ərzində istər Azərbaycanın, istərsə də dünyanın təhsilə baxışı, yanaşması dəyişib, əmək bazarının tələbləri yenilənib ona görə də bu sənəddə müəyyən dəyişikliklər edilməsi qaçılmazdır. Mən 3 ildir qeyd edirəm ki, kurikulumun standartlarına yenidən baxmaq, redaktə xarakterli məcburi dəyişikliklər etmək lazımdır. Birincisi, necə deyərlər, bu sənəd köhnəlib, qanunvericilik tələb edir ki, azı 5 ildən bir bu sənəd yenidən işlənsin. İkincisi, kurikulumun müəyyən fənlər üzrə əsas və alt standartlarının reallaşması ya mümkün deyil, ya da ki, reallaşması əhəmiyyətsizdir. Şagird bir sıra standartları tədris prosesində reallaşdırmaqla heç bir mütərəqqi və əhəmiyyətli bilik, bacarıq, vərdiş əldə etmir. Əslində kurikulum kifayət qədər faydalı təlim standartlarıdır. Lakin buraxılış və qəbul imtahanlarında ortaya çıxan nəticələr indi müəllimə verilən pulun səviyyəsinə uyğundur. Əgər nəticələri artırmaq istəyiriksə, ilk növbədə müəllimlərin əmək haqqı məsələsini köklü şəkildə dəyişmək, artırmaq lazımdır. Sizi əmin edirəm ki, tətbiq olunan layihələrə ayrılan vəsaitlərin birbaşa müəllimlər arasında bölüşdürülməsi təmin olunsa, daha keyfiyyətli təhsil ortaya çıxar".

❑ **Günel MANAFLI**

# Yəhudilər Bakını niyə sevir?

## **Qabil Hüseynli:** "Azərbaycan onlar üçün əlverişli ölkədir"



Qabil Hüseynli

**Yəhudilərin hər zaman Azərbaycana qarşı sayğı-sevgisini müşahidə edirik. Bunu ölkəmizdə yaşayan çoxsaylı yəhudilərin olması və təşkilatlarının fəaliyyət göstərməsi ilə də sübut etmək mümkündür. İndi isə yəhudilər Azərbaycanda məktəblərinin inşasına investisiya qoymağı planlaşdırırlar.**

Bunu mayın 17-də Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlayn prezident İlham Əliyevlə görüşündə bildirib. Görüş zamanı M.Honlayn mərhum prezident Heydər Əliyevlə görüşünü və onunla apardığı çox maraqlı söhbəti məmnunluqla xatırladaraq, Amerika yəhudi icmasının Azərbaycanda yəhudi məktəbinin inşasına investisiya qoymağı planlaşdırdığını diqqətə çatdırıb.

Honlayn Azərbaycan-ABŞ əlaqələrindən, o cümlədən Amerika yəhudiləri ilə ölkəmiz arasında uğurlu əməkdaşlıqdan məmnunluğunu ifadə edib və bu əməkdaşlığın daha da gücləndirilməsinin önəmini vurğulayıb.

Ölkə başçısı Honlaynın ölkəmizə böyük nümayəndə heyəti ilə bundan əvvəlki səfəri zamanı onunla görüşünü xatırladıb. Dövlət başçısı qeyd edib ki, Azərbaycanın yəhudi icması ölkəmizdə digər xalqların nümayəndələri ilə birlikdə dinc və əmin-amanlıq şəraitində yaşayır.

Söhbət zamanı Azərbaycanda bu ilin "İslam Həmrəyliyi ili" elan olunması, hazırda Bakıda İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi və yüksək səviyyədə təşkil edilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə ölkəmizin töhfəsi kimi dəyərləndirilib, Azərbaycanda multikulturalizm mühitinin təmin olunmasının əhəmiyyətindən danışılıb və bu istiqamətdə görülən tədbirlərin maraqla izlənildiyi qeyd olunub. Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi də vurğulanıb.

Göründüyü kimi, yəhudi dövləti və təşkilatlarının Azərbaycanla əlaqələri həmişə yüksək olub. Onlar ölkəmizlə münasibətlərin yaxşı olmasına ciddi önəm verirlər. Ekspertlər bunun bir sıra amillərlə bağlı olduğunu vurğulayırlar. Bu istiqamətdə ən çox səslənən fikirlər Azərbaycanın yerləşdiyi strateji mövqe, ölkə daxilindəki sabitlikdir.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli yəhudi məktəblərinin açılması ilə Azərbaycan üçün böyük perspektivlərin açıla biləcəyini vurğuladı:** "Əgər Azərbaycanda öz dillərində məktəb açmaq istəyirlərsə, bunu məmnuniyyətlə qəbul etmək lazımdır. Yəhudi lobbiləri ilə əlaqələri sürətləndirmək üçün bütün imkanlardan istifadə etmək lazımdır. Doğrudur, yəhudilər azərbaycanlıları və dövlətimizi sevirlər. Yeri gələndə Azərbaycanın haqq səsini dünyaya çatdırmaqda lobbiçilik fəaliyyətlərindən istifadə edirlər. Onların açacaqları məktəblərin Azərbaycan üçün heç bir ziyanı yoxdur. Əksinə, onlar Azərbaycana daha kökdən bağlanırlar, ölkəmizlə multikultural əlaqələri daha da dərinləşir. Bu əlaqələrin dərinləşməsi Azərbaycanın, xüsusilə hərbi sənayemizin inkişafı üçün perspektivlər açır. Azərbaycan özünün hərbi sənaye kompleksini yaradır, bunu yaratmaq üçün mütləq texnoloji cəhətdən güclü dövlətlər lazımdır. Bu sahədə yəhudi dövlətlərindən ən öndə gedəni İsraildir. Ölkəmizdəki yəhudilər İsraillə əlaqələrimizə böyük töhfələr verirlər. Bir vətəndaş kimi yəhudilərin türklərlə əlaqələrinin tam yaxın olması üçün nə imkanımız varsa, ondan istifadə etməyimizlə bağlı hökumətə müraciət edirəm".

**Politoloq yəhudilərin Azərbaycan sevgilərində dövlət maraqlarının olduğunu da qeyd etdi:** "Müsəlman ölkələri içərisində Azərbaycanın həm tolerantlığı, həm multikultural vəziyyətinin normal olması, həm də burada başqa ölkələrin millətçilərinə pis münasibətin olmaması yəhudilərin ölkəmizə ciddi önəm verməsinə səbəb olur. Azərbaycan millətinin xarakteri başqa millətlərə xoş münasibət göstərməklə zəngindir. Onlar görürlər ki, azərbaycanlılar başqa xalqlara münasibətdə həmişə humanizmlə yanaşırlar. Burada geosiyasi mövqeyimiz də əlverişlidir. Gələcəkdə bu mövqeyimizdən istifadə edərək, yəhudilər Orta Asiya və postsovet ölkələrinə sıçrayış edə bilərlər. Azərbaycan bütün amillərə görə yəhudilər üçün əlverişli ölkədir. Amma sözsüz ki, xalqımızın mədəniyyəti, adət-ənənələri və digər xüsusiyyətləri daim öndə gəlir. Yəhudilərin sevgilərinə bu səbəbdir. Onlar burada möhkəm oturuşublar, onlar üçün də hər cür şərait yaradılıb".

❑ **Cavanşir ABBASLI**

# Bu il istehsalatda bədbəxt hadisə zamanı 13 nəfər ölüb



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən cari ilin yanvar-aprel aylarında istehsalatla əlaqəli 43 bədbəxt hadisə (o cümlədən istehsalatla əlaqəli qrup halında baş vermiş 2 hadisə) qeydə alınıb. Bunu "APA-Economics"ə açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev deyib.**

Şöbə müdiri bildirib ki, daha çox tikinti və nəqliyyat, emal sənayesi, mədənçıxarma sahələrində, həmçinin özəl sektora aid müəssisələrdə baş verdiyi müəyyən olunan bu hadisələr nəticəsində 13 nəfər dünyasını dəyişib.

"Bu dövrdə istehsalatla əlaqəli bədbəxt hadisələr nəticəsində xəsarət alanların sayı isə 33 nəfər təşkil edib. Dövlət Əmək Müfəttişliyi Xidməti istehsalatla əlaqəli bədbəxt hadisələrlə əlaqədar təhqiqat işləri apararaq, nəticələr əsasında qanunvericiliyin tələblərinə uyğun şəkildə tədbirlər görüb", - deyə şöbə müdiri vurğulayıb.

E.Babayevin sözlərinə görə, qeyd olunan dövrdə Dövlət Əmək Müfəttişliyi Xidməti əməyin mühafizəsi, texniki təhlükəsizlik, işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması, habelə işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta edilməsinin təmin olunması və s. ilə bağlı işəgötürənlər arasında məlumatlandırma işlərini də davam etdirib. İşəgötürənlərə əmək qanunvericiliyinin, o cümlədən əməyin mühafizəsi ilə bağlı norma və standartların tətbiqi barədə metodiki köməkliklər göstərilib.

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəlikləri nizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Məcbur ərə verilən qız özünü asdı

**Biləsuvar rayonunda gənc qadın intihar edib. Baki-Post.az xəbər verir ki, hadisə rayonun Bəydili kəndində qeydə alınıb. Məlumata görə, Aşağı Cürəli kəndindən olan Abbasova Könül Sakit qızı 4 ay əvvəl xalası oğlu ilə ailə quraraq Bəydili kəndinə gəlin köçüb. Bu gün isə o, tavandan asılı vəziyyətdə tapılıb.**

Onun ata-anası tərəfindən öz xalası oğluna məcburən ərə verildiyi qeyd olunur.

Bəydili kənd bələdiyyəsinin sədri İlqar Kərimov baki-post.az-a açıqlamasında intihar faktını təsdiqləyib. Bildirib ki, hadisənin hansı səbəbdən baş verdiyi hələ ki bilinmir.

Xatırladaq ki, ötən ay Biləsuvar rayonunun Bəydili kəndində daha bir intihar hadisəsi qeydə alınmışdı. Yeni ailə qurmuş kənd sakini 31 yaşlı Esmira Həsənova özünü yaşadığı evdə asmışdı. O, intihar etməmişdən əvvəl məktub yazaraq həyatından və problemlərdən bezdiyini, ölümündə heç kimin günahkar olmadığını bildirmişdi.

E. Həsənova Çaylı kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat fənni müəllimi olub.



## Son üç ayda qeydə alınan nikah və boşanmaların sayı açıqlanıb

**2017-ci ilin ilk üç ayı ərzində qeydiyyat şöbələri tərəfindən 13305 nikah və 3611 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,6, boşanmaların sayı isə 1,5 olub.**

Bu barədə "Report"a Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bu ilin yanvar-mart aylarında ölkədə 15 860 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,6 təşkil edib.

Cari ilin yanvar-mart ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 635 nəfər gələn və 301 nəfər ölkədən gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 334 nəfər təşkil edib.

## Azərbaycanda torpaqların kütləvi analizinə başlanacaq

**Azərbaycanda torpaqların kütləvi analizinin həyata keçirilməsi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin 15 regional mərkəzində laboratoriyaların quraşdırılması başa çatmaq üzrədir.**

"Report" xəbər verir ki, bu barədə nazir Heydər Əsədov məlumat verib.

Nazir deyib ki, Türkiyə və digər 3 ölkə ilə treninqlər də başa çatır və yaxın bir neçə ay ərzində torpaqların kütləvi analizinə başlanacaq: "Həmin analiz əsasında rayonların ixtisaslaşması mümkün olacaq. Hardasa hansısa bitkinin əkilməsi yalnız zəruri təhlillər aparıldıqdan, torpağın tərkibi öyrənildikdən sonra həyata keçiriləcək, ixtisaslaşma üçün müvafiq təkliflər veriləcək".

**Nazir onu da bildirib ki, bu ilin ilk 4 ayında kənd təsərrüfatı məhsullarının ixracı ötən ilin eyni dövrünə nisbətən 44% artıb:** "Xüsusən də bitkiçilik və meyvə-tərəvəz məhsulları ixracda diqqət çəkir. Davamlılığına gəlincə, məhsul ixracının həcminin ilbəil daha geniş miqyasda artırılmasını gözləyirik və hədəfləyirik".

## Qaxda 79 yaşlı kişi intihar edib

**Qax rayonunda 79 yaşlı kişi intihar edib. "Report"un şimal-qərb bürosunun məlumatına görə, rayonun Çinarlı kənd sakini 1938-ci il təvəllüdlü Nəzirməhəmməd Mehdi oğlu Abdullayev özünü yaşadığı evin həyətində olan tövlədə asıb. Evdə tək olan N.Abdullayevi yaxınları asılı vəziyyətdə aşkar ediblər.**

Ailə üzvlərinin sözlərinə görə, N.Abdullayev son vaxtlar xəstəlikdən əziyyət çəkib və əməliyyat olunub. Elə buna görə də bir neçə dəfə özünə qəsd etmək istəyib, amma yaxınları tərəfindən bunun qarşısı alınıb.

Faktla bağlı Qax Rayon Prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT
N 105 (6719) 18 may 2017

# Ölkədə görüntülü və görüntüsüz danışıqları niyə qadağan ediblər?

## Nazirlik susur, versiyalar isə gündən-günə artır

**Qəzetimizin ötən sayında xəbər vermişdik ki, ölkəmizdə WhatsApp zəngləri ilə bağlı problemlər yaşanır. Bunun daha çox İslam Oyunları ilə bağlı olduğu səslənən ilk versiyalardan biridir. Ehtimal olunur ki, bu ərəfədə informasiyaların xaricə operativ surətdə ötürülməsinin qarşısını almaq üçündür. Bunun təhlükəsizlik və ya ölkədə fəaliyyət göstərən mobil şirkətlərin monopolist fəaliyyətlərinin nəticəsi olması hələ dəqiqləşməyib. Bütün hallarda problem var və onun həll yolları tapılmalıdır.**

Amma WhatsApp-la yanaşı, problem özünü Skype-da da göstərir. Yəni, insanlar sonuncu proqram vasitəsilə də videozəng edə bilmirlər. Eyni problem messencer istifadəçiləri arasında da nümayiş olunur. Proqramın zəng xidmətlərinin yalnız ölkəmizdə işləmədiyi bildirilir. Ona görə də insanlar daha çox Viber-in xidmətindən istifadə etməyə çalışırlar. Hələlik real qüvvədə olan və insanları yanıltmayan tək alternativ budur.

Halbuki Bakı 2017 IV İslam Həmrəyliyi Oyunlarının rəsmi tərəfdaşı olan «Microsoft» korporasiyası Skype istifadəçiləri üçün sözügedən yarışlara həsr olunmuş yeni emotikonu təqdim edib. Şirkətdən verilən məlumata görə, Microsoft-un bu misilsiz təşəbbüsünün məqsədi insanların bütün dünyaya oyunlar haqqında danışa bilmələri üçün möhtəşəm idman hadisəsinə dəstək olmaqdır.




Bu il «Microsoft» korporasiyası Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının Əməliyyat Komitəsi ilə yarışların keçiriləcəyi şəhərdən - Azərbaycan paytaxtından ilhamlanaraq yeni emotikon yaratmaq üçün güclərini birləşdirib.

Emotikonda Qobustan və Alov qüllələrinin (Flame Towers) simvolları istifadə olunub. Yenilikdən yararlanmaq üçün mətn sətrində (baku2017) yazmaq və ya paneldə Qobustan simvollu emotikonu seçmək lazımdır ki, daha sonra bu simvolu Flame Towers əvəz edir.

Skype proqramının təklif etdiyi bütün imkanlardan daim faydalana bilmək üçün «Microsoft» korporasiyası Windows ttps://www.skype.com/ru/download-skype/skype-for-computer/, Mac ttp://www.skype.com/ru/download-skype/skype-for-mac/, iPhone ttp://itunes.apple.com/in/app/skype/id304878510, iPad ttp://itunes.apple.com/app/skype-for-ipad/id442012681, və Android ttp://play.google.com/store/apps/details?id=com.skype.raider ilə işləyən kompüterlərə tətbiqin ən son versiyasından yararlanmağı tövsiyə edir.

Qeyd edək ki, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının Əməliyyat Komitəsi ilə imzalanan tərəfdaşlıq sazişi çərçivəsində «Microsoft» korporasiyası "Bakı 2017 Skype Zonası" təşəbbüsünü həyata keçirmək məqsədilə texniki proqram təminatı, avadanlıq və brendinin təminatına cavabdeh olacaq. Bu maraqlı və yenilikçi təşəbbüs İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) 57 üzv ölkəsindən olan medal qazanmış idmançıların öz uğurlarını dostları və ailələri ilə videoəlaqə yaradaraq qeyd etmələrinə imkan verəcək.

"Bakı 2017 Skype Zonası" idmançıların hər bir reaksiyasını üç kamera ilə qeydə alaraq tamaşaçılara oyunların ən maraqlı həyat hekayələrini yaxından izləmək imkanı yaradacaq.

Söhbətlər veb-kamera, eləcə də laptop ekranının və idmançının kürəyinin arxasındakı kameralar vasitəsilə lentə alınacaq. Əvvəlcə 10 dəqiqə sürən videolar 90 saniyəlik kliplər şəklində montaj olunacaq və Bakı 2017-nin sosial media kanalları (Facebook.com/baku2017 ttps://www.facebook.com/baku2017/; Twitter.com/Baku2017isg ttps://twitter.com/search?q=Baku2017isg&src=typd; Youtube.com/Baku2017 ttps://www.youtube.com/watch?v=xsVcRkK03Oc) vasitəsilə onlayn rejimdə yayımlanacaq.

İslam Oyunları ilə bağlı həyata keçirilən bu kampaniyanın elə oyunlar başlanan günlərdə niyə iflasa uğraması da bir başqa müzakirənin mövzusudur. Söhbət burada təkcə yerli əhalinin yaşadığı problemdən getmir. Turistlər də bundan narazı qalıblar. Təhlükəsizlik məqsədilə belə bir məhdudiyyət qoyulubsa, bu, qanunvericilik əsasında olub. Amma Azərbaycanda bu sahəyə cavabdeh qurum Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir. Ekspertlər də hesab edir ki, sözügedən nazirlik ölkədə böyük bir beynəlxalq tədbirin keçirildiyi vaxtda belə bir problem yaşandığına görə rəsmi açıqlama verməlidir.

Əməkdaşımız gün ərzində bu suala cavab tapmaq və problemin səbəbini müəyyənləşdirmək üçün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə əlaqə saxlayıb. Amma gün boyu nazirliyin heç bir əməkdaşı bu suala cavab verə bilməyib. Mövzunu davam etdirəcəyik.

**❑ Sevinc TELMANQIZI**

# Bakıda 1 saat intervalla işləyən avtobus...

## Balaxanı sakinləri ictimai nəqliyyat problemindən gileylidir; **BNA sözçüsü:** "54 nömrəli avtobusla üst-üstə düşən 62 nömrəli marşrut xətti var"







**Balaxanıda "2-ci mədən ərazisi" adlanan ərazinin sakinləri ictimai nəqliyyat problemindən şikayətçidir. Bu barədə redaksiyamıza müraciət edən sakinlər məlumat veriblər. Onların sözlərinə görə, illərdir ki, ictimai nəqliyyat problemi yaşayırlar. Sakinlər bununla bağlı dəfələrlə müvafiq qurumlara şikayət edib yardım ala bilməyincə, məsələni ictimailəşdirmək üçün musavat.com-a müraciət ediblər.**

Öncə onu qeyd edək ki, "2-ci mədən ərazisi"inin bir çox problemləri barəsində daha öncə də mətbuat səhifələrində yazılar dərc olunub. Bu ərazidə əsasən məcburi köçkünlər və Qərbi Azərbaycandan gələnlər məskunlaşıblar. Ərazidə sovet dönəmində çoxsaylı neft quyuları qazılıb və hazırda onların istismar müddəti başa çatsa da, həmin quyular bu gün də təhlükə mənbəyidir. "2-ci mədən ərazisi"ndə əksər evlər isə məhz bu quyuların üzərində tikilib. Sakinlərin sözlərinə görə, "Sovetski" kimi tanınan məhəllədə ilk söküntülər başlayan zaman bu ərazinin də söküləcəyi xəbəri yayılıb. Hətta burada yaşayanların bəzilərinin mənzillərinin sahələri də ölçülüb. Lakin sonradan bu məsələ ilə maraqlanan olmayıb.

Sakinlər bildirirlər ki, əraziyə yalnız 54 nömrəli avtobus işləyir ki, onu da bir saat gözləmək məcburiyyətində qalırlar. Deyilənlərin nə dərəcədə doğru olub-olmadığını yoxlamaq üçün biz də qeyd olunan avtobusla "2-ci mədən ərazisi"nə yol aldıq. 8-ci kilometr bazarının qarşısında bir xeyli gözlədikdən sonra nəhayət, avtobus gəldi. Sürücüdən öyrəndik ki, avtobusun 1 saat intervalla işləməsinin səbəbi 54 nömrəli marşrut xətti üzrə yalnız bir maşının olmasıdır. Sürücü bildirdi ki, marşrutun yolu üzrə sərnişin sayı az olduğu üçün əlavə avtobus verilmir.

**Sakinlər isə fərqli fikirdədirlər. Sakin Sənubər Həsənova aşağıdakıları bildirdi:** "Axşam saat 8-dən sonra marşrut, ümumiyyətlə, işləmir. Avtobus kiçik tutumludur və çox narahatdır. Narahatlığına, kiçik olmasına birtəhər dözürük. Ancaq 1 saat intervalla işləməsi bizə çox maneə yaradır. Sürücü bildirir ki, cəmi bir avtobus var. O da dövr edib qayıdana qədər bir saat vaxt keçir. Təcili bir işimiz olduğu zaman məcburuq ki, 1 saat gözləyək. Küçələrdə yay aylarında istidən, qış aylarında isə soyuqdan zülm çəkirik. Bir neçə dəfə müvafiq qurumlara müraciət etmişik, ancaq problem öz həllini tapmayıb. Bizə deyirlər ki, ərazidə əlavə marşrut xəttinə ehtiyac yoxdur. Ancaq faktiki gözlə də görünür ki, burada evlər bir-birinin içərisində yerləşir. Hər evdə də ən azı 2 adam yaşayanda minlərlə insan edir. Düşünürük ki, problem həll olunmasa, Bakı Nəqliyyat Agentliyinin qarşısına gedib, orada aksiya keçirək".

Şəhid ailəsi olduğunu bildirən və ərazidə yaşayan digər sakin Fərman Həsənov da qeyd etdi ki, bir avtobusun olması ona problemlər yaradır:

"Bir dəfə avtobusu nə qədər gözlədik, gəlib çıxmadı. Sonra öyrəndik ki, avtobus xarab olduğu üçün hələ bir neçə saat da işləməyəcək. Yəni bu kimi gülünc problemlər də olur. Hər halda, bununla bağlı bir tədbir görülsə, yaxşı olar".

Ərazinin digər sakinləri də problem barəsində oxşar fikirləri bildirdilər.

**Məsələ ilə bağlı münasibət öyrənmək üçün Bakı Nəqliyyat Agentliyi ilə də əlaqə saxladıq. Agentliyin mətbuat xidmətinin rəhbəri Mais Ağayev musavat.com-a bildirdi ki, əslində həmin istiqamət üzrə hərəkət edən əlavə marşrut xətti var:**

"54 nömrəli ilə üst-üstə düşən 62 nömrəli marşrut xətti var. Sakinlər bizə müraciət etmişdilər ki, 62 nömrəli avtobusun keçmədiyi ərazilərdə əziyyət çəkirlər. Ona görə də biz sakinlərin rahatlığını təmin etmək məqsədilə 54 nömrəli marşrut xəttini açdıq. 62 nömrəli avtobus deyərdim ki, 99 faiz 54-ün yolunu gedir. Yalnız orada bir az məsafə var ki, yalnız 54 gedir. Həmin ərazidə isə sərnişin axını zəifdir. Məlum olduğu kimi, marşrut xətti verilən zaman sərnişin sıxlığı əsas götürülür. Bir məqamı da qeyd edim ki, bu yaxınlarda şəhər mərkəzindən başlayacaq marşrut xətlərinin optimallaşdırılması üzrə işlər aparılacaq. Bu işlərə üst-üstə düşən marşrut xətlərinin ləğvi, ehtiyac olan yerlərdə yeni marşrut xətlərinin açılması da daxildir. İslam Oyunlarından sonra bu işlər daha da sürətləndiriləcək və o zaman 54 nömrəli avtobusla bağlı problemlər də öz həllini tapacaq. Ancaq bir daha qeyd edim ki, 62 nömrəli avtobus da həmin yolun böyük hissəsini gedir. Sadəcə olaraq orada 500 metrə qədər məsafə var ki, 54 nömrəli də oradan keçir və bir nəqliyyat vasitəsi var".

**❑ Əli RAİS**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 105 (6719) 18 may 2017




## Çoxlu kofe və energetik içki içən 16 yaşlı oğlan öldü

Amerikanın Cənubi Karolina ştatında yaşayan yeniyetmə həddən artıq kofein tərkibli içki içdiyi üçün ölüb. Bu barədə BBC News xəbər verib. 16 yaşlı Devis Allen Krayp iki saat ərzində "McDonalds"dan latte, eləcə də böyük şüşə "Mountain Dew" və adı açıqlanmayan energetik içki içib. Onların tərkibində ümumən 470 milliqram kofein olub. Mütəxəssislərin rəyinə görə, bu, aritmiya, ürək tutması təşkil edib və nəticədə gəncin ölümünə səbəb olub. Qeyd olunub ki, Krayp şişmanlıqdan əziyyət çəkmirdi və ürək problemlərindən də şikayəti yox idi.

Mütəxəssislər eyni zamanda bildiriblər ki, söhbət kofeinin dozadan artıq qəbul edilməsindən getmir. Burada əsas problem onun hansı aralıqda, sıxlıqda qəbul edilməsidir. Ümumiyyətlə, onun həmin gün kofelərdən sonra enerji içkisi də içməsi ciddi səhv idi. Apreldə isə amerikalı alimlər üzə çıxardılar ki, enerji içkiləri kofein tərkibli digər içkilərdən daha təhlükəlidir. O, orqanizmdəki QT intervalının yüksəlməsinə səbəb olur ki, bu da aritmiya yaradır.

# Podiuma 50 yaşlı siyasətçi maneken kimi çıxdı

Sidneydə keçirilən moda həftəsində podiuma 50-60 yaşlı modellər çıxıblar. Bu barədə "Daily Mail" qəzeti xəbər verib. Yaşlı manekenlər dizayner Tomas Pattikin modellərini nümayiş etdiriblər. Podiuma 50 yaşlı siyasətçi Enn Ali, müğənni Sarşa Simon və qaçqın Aminata Kontex Bayder çıxıb. Bununla da modelyer müxtəlif tipli gözəllikləri nümayiş etdirməyə çalışıb. "Variasiya" adını daşıyan moda nümayişindən əldə olunan gəlir "Ağ lent" adlı xeyriyyə təşkilatının hesabına göndərilib. Sözügedən təşkilat məişət zorakılığı qurbanlarının müdafiəsi üçün nəzərdə tutulub. Hər il nisbətən yaşlı və həyatda uğur



qazanmış qadınlar bu aksiyaya dəstək vermək üçün podiuma çıxır və izləyicilərin marağına səbəb olurlar. Onlar bununla da qadınların hər yaşda gözəl ola biləcəklərinin mesajını verirlər.

Sidneydəki moda həftəsi 14 mayda başlanıb və 19 maya qədər davam edəcək.

# Uşağı sağlam qidalandırmaq istədilər... acından öldü



Belçikanın Beveren şəhərində 7 aylıq körpələrinin "sağlam qidalanması" üçün uşaq yeməyi əvəzinə alternativ qidalar verən cütlük onun acından ölməsinə səbəb olub. Prokurorluq Lukas adlı körpənin ana və atasına "ölümə səbəb olduqları" üçün həbs cəzası tələb edib. Təbii qidalar satılan bir iş yerinin sahibi olan cütlük körpələrinə 3 ayını tamamlayandan sonra uşaq qidası yerinə "super yemək" adı ilə satılan alternativ qidalar verib. Lukas adlı körpə 4 ay boyunca ancaq qarğıdalı südü, yulaf südü, quinoa südü və qara buğda ilə qidalanıb. Uşaq 7-ci ayında ancaq 4 kilo 300 qrama çatıb. Get-gedə daha da arıqlayan Lukas gecə qusmağa başlayanda isə ata-anası tərəfindən bir alternativ tibb mütəxəssisinə aparılıb. "Homeopat" adı verilən alternativ tibb mütəxəssisi Lukası birbaşa xəstəxanaya aparmalarını tələb edib. Ancaq körpə yolda dünyasını dəyişib. Körpələrinin qidalanma problemləri ilə bağlı olaraq həkimə müraciət etmədikləri üçün cütlük haqqında daha bir şikayət veriləcək. Prokuror Pascal Persoons isə deyib ki, cütlüyün "sağlam qidalanma xəstəliyi" uşağın həyatı bahasına başa gəlib. O, uşağın valideynlərinə ayrı-ayrılıqda 18 ay həbs cəzası verilməsini tələb edib. Uşağın ana-atası isə "Səhv bir şey etdiyimizə inanmırıq. Uşağımıza ən yaxşı formada baxa bilmək üçün cəhd göstərdik. Heç kəs uşağını bilə-bilə ölümə aparmaz" - deyiblər.

Cütlük haqqındakı qərar 14 iyunda baş tutacaq məhkəmə prosesində dəqiqləşdiriləcək.




**QOÇ** - Maraqlı adamlarla görüşləriniz mümkündür. Belə məqamlarda kiminsə əleyhinə danışmaqdansa, öz söhbət və davranışlarınızla rəğbət qazanmağa çalışın. Riskdən uzaq olun.

**BUĞA** - Bu gün iştirakçısı olduğunuz əksər proseslər sizə xeyir verəcək. Mövcud reallığa obyektiv qiymət verin. Kənar təsirlərə uymayın. Qətiyyən görücü və ya falçı yanına da getməyin.

**ƏKİZLƏR** - İş və fəaliyyətlə bağlı yeniliklər yolunuzu gözləyir. Bunun üçün bəzi mühüm şəxslərlə görüşməyiniz vacibdir. Çətinlikdən qorxmayın. Ən azı ona görə ki, artıq öz dövranınız yetişməkdədir.

**XƏRÇƏNG** - Riskli hadisələrlə üzləşmə ehtimalınız var. Nəticənin sizə xeyir verməsini istəyirsinizsə, təcrübəli adamlarla məsləhətləşin. Əmin olun ki, onlar sizə lazımi dəstəyi verəcək.

**ŞİR** - Əsas diqqətinizi fəaliyyətə yönəldin. Yalnız bu halda, qarşıya qoyduğunuz məqsədlərə nail ola bilərsiniz. Həmkarlarınızla, eləcə də doğmalarınızla münasibətdə acıdil olmayın.

**QIZ** - Maddi durumunuzu yaxşılaşdırmaq istiqamətində şansınız var. Bunun üçün maksimum bəhrələnməyə çalışın. Əvvəlcədən nəzərdə tutmadığınız məsələlərə baş qoşmayın. Sevgidə uğurlarınız gözlənilir.

**TƏRƏZİ** - Sevindirici hadisələr, təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, gözlənilməz səfərə də çıxasınız. Amma pul və sənədləşdirmə işləri ilə bağlı bütün planlarınızı təxirə salın.

**ƏQRƏB** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində müəyyən uğurlara yiyələnəcəyinizdən xəbər verir. Digər işlərdə isə gərginlik hökm sürəcək. Səhhətinizə xüsusi diqqət ayırın.

**OXATAN** - Əsas planlarınızı iş vaxtına təyin edin. Çünki axşam saat 18-dən sonra sinirlərinizin gərilməsi işlərinizə mane olacaq. Nahar ərəfəsində gözləmədiyiniz istiqamətdən sevinə bilərsiniz.

**OĞLAQ** - Təxminən saat 14-ə qədər passiv ərəfə yaşayacaqsınız. Həmkar və rəhbərinizlə mübahisələrə cəlb oluna bilərsiniz. Sonrakı müddətdə isə hər şey normal tərzdə cərəyan edəcək.

**SUTÖKƏN** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq istəyirsinizsə, çoxdan bəri nəzərdə tutduğunuz şəxslərlə görüşləri reallaşdırın. Digər işləri təxirə salmaq da olar. Riskdən qorxmayın.

**BALIQLAR** - Artıq son günlər qlobal problemlərinizin həlli yolları aydınlaşmağa başlayıb. Bunu sürətləndirmək üçün ətrafınızda etibarlı insanlar olmalıdır. Axşama yaxın səhhətinizi qoruyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən bədbəxt iti



Lana adlı it 2015-ci ildə "dünyanın ən qəmgin iti" olaraq sosial mediada yayılmış və bir ailəyə sahibləndirilmişdi. Bunun kanadalı Lananın xoşbəxt sonluğu olacağı düşünülsə də, həmin ailə də şirin iti Ontariodaki sığınacağa geri qaytardı. İndi ona bir ailə tapılmasa, sevimli Lana yatızdırılacaq. Şirin it o qədər kədərli idi ki, gəzintiyə belə çıxmırdı. Sığınacaq işçiləri bildiriblər ki, Lana tipik bir it deyil. İnsanlar sevib, oynaya biləcəkləri bir it axtarırdılar, amma Lana özünü sevdirməyə meylli deyil. Bundan başqa, onun güvən problemi də var. Sığınacaq işçiləri deyirlər ki, Lana onu ailəsinə qəbul edəcək insanların onu olduğu kimi sevməsini istəyirlər. İndi bu itin 20 maya qədər vaxtı var. Həmin günə qədər kimsə ona sahib çıxsa, it bir evdə böyüyəcək. Alınmasa, Lana bu həyata gözlərini yumacaq.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.